# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ


**Buraxılış üçün məsul şəxs:**
*R.R.Süleymanov*

**Redaksiya heyəti :**
*Ə.K.Allahverdiyev*
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*V.K.Quliyev*
*M.Ə.Əliyev*
*G.Ə.Qurbanova*

**Məsul katib:**
*Y.F.Xəlilov*



**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 544-61-71*
*Faks: 544-70-82*

*E-mail:*
*alimehkeme@nakhchivan.az*

*Rəsmi sayt:*
*www.supremecourt.nakhchivan.az*
*www.alimehkeme.nakhchivan.az*


## *M Ü N D Ə R İ C A T*


AZƏRBAYCANI UĞURLU GƏLƏCƏYƏ APARAN SİYASƏT ...................... 4

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI ........................................................................................................... 7

***YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR ..................................................... 11***

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ................................................... 12

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 21 iyun tarixli 695-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................................................................... 12

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı* ............................ 13

Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(çıxarış)* ........... 14

Bir sıra birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(çıxarış)* ............................ 15

Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı *(çıxarış)* ............. 15

Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 9 avqust tarixli 310 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası"nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ............... 16

***MƏHKƏMƏ FƏALİYYƏTİ*** ....................................................................... ***18***

MÜLKİ KOLLEGİYADAN ............................................................................ 18

Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2013-cü birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili ................................... 18

İNZİBATİ-İQTİSADİ KOLLEGİYADAN .................................................... 24

Məhkəmə fəaliyyətinə dair 2013-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili ........................................................................ 24

CİNAYƏT KOLLEGİYASINDAN ............................................................... 26

Məhkəmə fəaliyyətinə dair 2013-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili ........................................................................ 26

*HƏRBİ KOLLEGİYADAN* ......................................................................... 33

Hərbi kollegiyanın 2013-cü ilin birinci yarısının yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar ............................................. 33

***İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ*** ...................................... ***34***

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "HUDOC" elektron məlumat bazası ...................................................................................................... 34

***NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ........................... 41***

Xüsusi ittiham qaydasında şikayətlər üzrə icraatın xüsusiyyətləri ..................... 41

***HAKİMLƏRİN MİLLİ VƏ BEYNƏLXALQ QURUMLARINDA ...................... 52***

Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2013-cü ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında ............. 52

***AZAD TRİBUNA.......................................................................................... 70***

Qiyabi məhkəmə icraatının aparılmasının ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi prinsipinə təsirinin xüsusiyyətləri haqqında ........................................................................... 70

***ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN ..................................... 82***

2013-cü ilin may-oktyabr aylarında keçirilən tədbirlərin xülasəsi ..................... 82

Naxçıvan Muxtar Respublikasının hakimləri üçün "Azərbaycan inzibati və mülki prosesinin aktual problemləri" mövzusunda seminar keçirilmiş, beynəlxalq təşkilatlar muxtar respublikada ədalət mühakiməsinin səviyyəsini yüksək qiymətləndirmişlər........................................................................................ 86

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatlarına həsr olunmuş iki günlük beynəlxalq semianar keçirilmişdir.......... 88

# AZƏRBAYCANI UĞURLU GƏLƏCƏYƏ APARAN SİYASƏT

***“Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”.***

***İlham Əliyev***
*(2013-cü il tarixli Prezident seçkilərinin ilkin nəticələri ilə bağlı xalqa müraciətindən)*

2013-cü il Azərbaycan Respublikasının tarixində son dərəcə əlamətdar bir il kimi yadda qaldı - *Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi və bu ilə təsadüf edən 7-ci prezident seçkilərində Heydər Əliyev siyasi kursunun növbəti möhtəşəm təntənəsi.*

Müasir Azərbaycan dövlətinin qurulması prosesi, ölkəmizdə dövlətçilik məqsədlərinə və milli-mənəvi dəyərlərə uyğun, demokratik inkişafa və beynəlxalq arenaya inteqrasiya prosesinə şərait yaradan qanunvericilik sisteminin formalaşması və məhkəmə-hüquq islahatlarının aparılması məhz xalqımızın əbədiyaşar xilaskarı Heydər Əliyevin adı ilə bağlıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Ulu öndər Heydər Əliyevin 90 illik yubileyinin ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə 21 yanvar 2013-cü il tarixdə “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında” Sərəncam imzalamışdır.

Təsadüfi deyil ki, ötən il dekabr ayının 22-də keçirilmiş dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında müstəqil Azərbaycanın qurucusu Ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar olaraq 2013-cü il Naxçıvan Muxtar Respublikasında “Heydər Əliyev ili” elan olunmuşdur.

Ölkəmizdə müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin müstəqilliyinə nail olunması, məhkəmə sistemində həyata keçirilən köklü islahatlar Ulu Öndər Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ulu Öndər tərəfindən həyata keçirilməyə başlanılan məhkəmə sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi prosesi bu gün Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatlarının prioritet istiqamətlərindən biri kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Həyata keçirilən hüquq islahatlarının, demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılmış addımların uğurlu nəticələrindən biri də ölkəmizdə oktyabrın 9-da keçirilən prezident seçkiləri oldu. Bu seçkilər azad, şəffaf, ədalətli və demokratik şəraitdə keçirildi. Seçicilər yüksək fəallıq nümayiş etdirməklə ölkəmizin həyatında bu mühüm siyasi kampaniyaya böyük maraq və diqqət göstərdilər. Müxtəlif beynəlxalq qurumların rəsmilərinin, o cümlədən ayrı-ayrı ölkələrdən olan beynəlxalq müşahidəçilərin seçkilərin yüksək səviyyədə keçirilməsi ilə bağlı fikirləri də deyilənləri bir daha təsdiq etdi. Qürur hissi ilə deyə bilərik ki, məhz azad, şəffaf, ədalətli və demokratik şəraitdə başa çatan prezident seçkilərində cənab İlham Əliyev Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin – 84,54 faizinin səsini qazandı. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi oktyabrın 19-da seçkilərin nəticələrinin təsdiq və rəsmən elan olunmasına dair qərar qəbul etdi.

Dövlət başçısı cənab İlham Əliyevin Prezident seçkilərində inamlı qələbə qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi isə təsadüfi deyil. Bu, ölkəmizin siyasi, sosial-iqtisadi inkişafı naminə göstərdiyi xidmətlərin məntiqi nəticəsidir. Bu, eyni zamanda ümumxalq rəğbətinin və Heydər Əliyev siyasi xəttinə bəslənən sonsuz inamın ifadəsidir.

Bu gün əminliklə demək olar ki, respublikamızda bərqərar olmuş demokratik idarəçilik sistemi xalqımızın maraqları və tələbatı üzərində qurulan dövlət siyasətinin uğurlarına şərait yaradır. Hazırda ölkəmizin tarixindəki bu dinamik yüksəliş ölkə həyatının gündəlik reallığına çevrilmişdir. Son on ildə Azərbaycan iqtisadi artım sürətinə görə dünyanın ən dinamik inkişaf edən ölkəsinə çevrilmiş, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası sürətlənmiş, Azərbaycanın Qafqaz bölgəsində lider mövqeyinin möhkəmlənməsi, Avropanın enerji təhlükəsizliyi sistemində mühüm yer tutması onun dünya birliyində nüfuzunu daha da artırmışdır.

Vətəndaş cəmiyyətinin yaradılması, hüquqi dövlət quruculuğu yolunda böyük uğurlar əldə edilmişdir. Demokratikləşmə prosesinin genişləndirilməsi, qanunun aliliyinin qorunması, insan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində görülən işlər Azərbaycanı Avropa ailəsinin nümunəvi üzvlərindən birinə çevirmişdir.

Ölkə başçısı cənab İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafı istiqamətində gördüyü dəyərli işlər sayəsində xalqımızın dərin etimadını, məhəbbət və hörmətini qazanmışdır. Ölkəmizin xoşbəxt gələcəyi bu gün dövlət başçımızın əzmlə həyata keçirdiyi quruculuq və inkişaf strategiyası ilə sıx bağlıdır. Xalqımız əmindir ki, cənab İlham Əliyevə xas olan siyasi

məharət və iradə dövlətimizin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi, insanların rifah halının daha da yaxşılaşdırılması sahəsində qarşıya qoyulan bütün vəzifələri indiyə qədər olduğu kimi bundan sonra da əzmlə yerinə yetirməyə imkan yaradacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev prezident seçkilərinin ilkin nəticələri ilə bağlı xalqa müraciətində demişdir: ***"Mənə böyük etimad göstərmiş, yenidən prezident vəzifəsinə seçmiş doğma xalqıma minnətdaram. Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm, daim Azərbaycanın dövlət maraqlarını müdafiə edəcəyəm...***

***Azərbaycan xalqı bu seçkilərdə son on il ərzində görülən işlərə öz yüksək qiymətini vermişdir. On il ərzində dövlətçiliyimizin əsasları möhkəmləndi. Bu gün Azərbaycan dövləti güclü, müstəqil siyasət aparan bir dövlətdir. Bizim güclü ideoloji əsaslarımız vardır. Azərbaycançılıq məfkurəsi bizim ideoloji dayağımızdır".***

Prezident seçkiləri bir daha göstərdi ki, Azərbaycan vətəndaşları bu gün Prezident İlham Əliyevə böyük etimad bəsləyir, onun siyasi kursunu birmənalı şəkildə dəstəkləyirlər. Ölkəmizin siyasi mühitində İlham Əliyevlə rəqabət apara biləcək hər hansı bir siyasətçi yoxdur. Ölkə rəhbərinin nüfuzu artıq Azərbaycan hüdudlarını da aşmış, dövlət başçımıza bölgənin, regionun əsas lideri, beynəlxalq birliyin qəbul etdiyi görkəmli siyasi və dövlət xadimi kimi xüsusi dividendlər gətirmişdir. Prezident İlham Əliyevə olan belə geniş beynəlxalq rəğbət həm də Azərbaycanın nüfuzunun yüksəlməsinə şərait yaradır.

Bu seçkilər Heydər Əliyevin 90 illik yubileyinin keçirildiyi ildə xalqımızın fenomenal şəxsiyyət Heydər Əliyev siyasi kursuna və bu siyasəti uğurla, Azərbaycan xalqının ən incə maraq və mənafelərinə uyğun şəkildə davam etdirən cənab İlham Əliyevə rəğbətini və Azərbaycan xalqının, o cümlədən məhkəmə orqanlarında çalışan şəxslərin həmin siyasətə, ölkədə həyata keçirilən çoxşaxəli islahatlara qətiyyətli dəstəyini nümayiş etdirdi.

Xalqımızın əvəzolunmaz rəhbəri, Ulu Öndər Heydər Əliyevin ideya və uzaqgörən siyasi kursunun mahir davamçısı Cənab İlham Əliyevi prezident seçkilərində qələbə qazanması münasibətilə səmimi qəlbdən təbrik edir, dövlət başçısı kimi ona gələcək fəaliyyətində uğurlar diləyirik.

**Redaksiya heyəti**

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

*2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair*

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibləri Vüqar Zeynalov və Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun, sədr müavini Natiq Məmmədovun, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimovun, üzvləri Şaitdin Əliyev, Fuad Cavadov, Ramiz İbrahimov, Validə Kazımova, Qabil Orucov, Tofiq Həsənov, İlham Məmmədov, Nizami Nadirov, Azər Tağıyev, Tamam Cəfərova, Bəxşeyiş Əsgərov, Almas Qəhramanlı, Akif Qurbanov və Etibar Quliyevin,

ekspertlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Ulduzə Həmidova və Sevda Süleymanovanın, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirov və həmin kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru Sübhan Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxdı.

Hakimlər S.Salmanova və R.Qvaladzenin məruzələrini, maraqlı subyektin nümayəndəsi M.Pənahovun çıxışını, ekspertlər U.Həmidova və E.Nəsirovun rəylərini dinləyib, iş materiallarını öyrənərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq 2013-cü il oktyabrın 9-da Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2 və 203.3-cü maddələrinə müvafiq olaraq səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarında olan bütün məlumatları ümumiləşdirərək, Azərbaycan Respublikası Prezidenti seçki-

ləri üzrə səsvermənin nəticələrinə dair 2013-cü il 17 oktyabr tarixli protokolu tərtib etmişdir. Həmin protokol Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 17 oktyabr tarixli, 38/218 saylı qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir.

Seçkilərin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq ekspertləri cəlb etmiş, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasının apelyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən və Azərbaycan Respublikasının Ali Məhkəməsindən seçki hüquqlarının müdafiəsi ilə bağlı baxılmış ərizələr haqqında məlumatları tələb etmişdir.

Konstitusiya işində olan sənədlərdən göründüyü kimi, seçki qutularında 3 734 592 (üç milyon yeddi yüz otuz dörd min beş yüz doxsan iki) seçki bülleteni müəyyən edilmiş, bunlardan 36 622 (otuz altı min altı yüz iyirmi iki) səs etibarsız hesab edilmişdir.

Etibarlı hesab edilmiş 3 697 970 (üç milyon altı yüz doxsan yeddi min doqquz yüz yetmiş) səs prezidentliyə namizədlər arasında aşağıdakı qaydada bölünmüşdür:

Ağa-zadə İqbal Fehruz oğlu - lehinə 88 723 (səksən səkkiz min yeddi yüz iyirmi üç) səs və ya 2,40 faiz;

Əliyev İlham Heydər oğlu - lehinə 3 126 113 (üç milyon yüz iyirmi altı min yüz on üç) səs və ya 84,54 faiz;

Əlizadə Araz Məmməd Mübariz oğlu - lehinə 32 069 (otuz iki min altmış doqquz) səs və ya 0,87 faiz;

Hacıyev Hafiz Ələmdar oğlu - lehinə 24 461 (iyirmi dörd min dörd yüz altmış bir) səs və ya 0,66 faiz;

Həsənquliyev Qüdrət Müzəffər oğlu - lehinə 73 702 (yetmiş üç min yeddi yüz iki) səs və ya 1,99 faiz;

Həsənli Cəmil Poladxan oğlu - lehinə 204 642 (iki yüz dörd min altı yüz qırx iki) səs və ya 5,53 faiz;

İsmayılov İlyas Abbas oğlu - lehinə 39 722 (otuz doqquz min yeddi yüz iyirmi iki) səs və ya 1,07 faiz;

Quliyev Fərəc İbrahim oğlu - lehinə 31 926 (otuz bir min doqquz yüz iyirmi altı) səs və ya 0,86 faiz;

Məmmədov Sərdar Calal oğlu - lehinə 22 773 (iyirmi iki min yeddi yüz yetmiş üç) səs və ya 0,62 faiz;

Oruc Zahid Məhərrəm oğlu - lehinə 53 839 (əlli üç min səkkiz yüz otuz doqquz) səs və ya 1,46 faiz.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.12-ci maddəsinə görə protokollar seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır. Həmin Məcəllənin 28.2-ci maddəsinə əsasən Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 18-i iştirak edərsə - azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmuş səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Mərkəzi Seçki Komissiyasının 18 üzvündən 17-si tərəfindən imzalanmışdır.

Ekspertlər U.Həmidova, S.Süleymanova, E.Nəsirov və S.Əliyevin rəylərindən göründüyü kimi, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 17 oktyabr tarixli protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğundur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sorğusuna cavab olaraq Bakı Apelyasiya Məhkəməsi bildirmişdir ki, seçki hüquqlarının müdafiəsi ilə bağlı həmin məhkəmədə 18 işə baxılmış, bütün işlər üzrə ərizələr əsassız olduğundan təmin edilməmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin məlumatına görə apelyasiya instansiyası məhkəməsinin aktlarından 13 kassasiya şikayəti verilmiş, son nəticədə şikayətlər təmin olunmadan saxlanılmışdır.

Azərbaycan Respublikasının Sumqayıt, Gəncə, Şirvan və Şəki apelyasiya məhkəmələri, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi bildirmişlər ki, seçki hüquqlarının müdafiəsi ilə bağlı həmin məhkəmələrə şikayət daxil olmamışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 17 oktyabr tarixli protokolunu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğun hesab edir. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks etdirilmiş nəticələr təsdiq edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Prezidentliyinə namizədə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdikdə, o, Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Yuxarıda göstərildiyi kimi, etibarlı hesab edilmiş seçici səslərindən 3 126 113 (üç milyon yüz iyirmi altı min yüz on üç) səs və ya 84,54 faiz Əliyev İlham Heydər oğlunun lehinə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinin və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsini, 130-cu maddəsinin VIII və IX hissələrini, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

QƏRARA ALDI:

1. 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 17 oktyabr tarixli protokolunda əks etdirilmiş nəticələr təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

3. Qərar elan olunduğu andan qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

***Sədr: Fərhad ABDULLAYEV***
***Bakı şəhəri, 19 oktyabr 2013-cü il***



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin ikinci nömrəsindən (2006-cı il) başlayaraq onun strukturunda “Normativ-hüquqi aktlar” adlı yeni sərlövhəyə yer ayrılmış, 2007-ci ilin birinci nömrəsindən etibarən isə həmin sərlövhə bu bölmədə dərc olunan hüquqi sənədlərə tam uyğun gəlməsi üçün “Yeni sənədlər, normativ aktlar” adlandırılmışdır. Sərlövhəni təqdim etməkdə məqsəd muxtar respublikamızla əlaqədar məsələləri tənzimləyən Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, qanunvericiliyə edilən yeniliklərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün mühüm əhəmiyyət daşıyan rəsmi sənədlərlə oxucularımızı tanış etməkdir. Sərlövhədə bu günədək 120-dən çox qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının, habelə əhalinin muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmalarına geniş imkan yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

**Redaksiya heyəti**

## “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

“İcra haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7, maddə 591; 2011, № 6, maddə 482, № 7, maddə 618; 2012, № 11, maddə 1052; Azərbaycan Respublikasının 2013-cü il 31 may tarixli 665-IVQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 23.7-ci, 27.9-cu və 70.4-cü maddələrdə “10” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin.

2. 81.4-cü maddə (ikinci halda) 81.5-ci maddə hesab edilsin və həmin maddədə “həmin qərarın surətini aldıqdan sonra 10” sözləri “bu Qanunun 81.4-cü maddəsində nəzərdə tutulmuş qərarın surətini aldıqdan sonra 30” sözləri ilə əvəz edilsin.

3. 87.1-ci maddənin ikinci cümləsində “İcra” sözü “Bu Qanunun digər maddələrində başqa müddət müəyyən edilməyibsə, icra” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 21 iyun 2013-cü il

§

## “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 21 iyun tarixli 695-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 21 iyun tarixli 695-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 24 iyul 2013-cü il

§

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

***Azərbaycan Respublikası Milli Məclisinin Qərarı***

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə, 96-cı maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Fərman Məmməd oğlu Abbasov başqa vəzifəyə dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. 2013-cü il avqustun 6-da səlahiyyət müddəti bitən aşağıdakı hakimlər Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər.

Həsənov Polad Vəli oğlu,

Qarayev Sənan Məmməd oğlu.

3. Bu qərar 2013-cü il avqustun 6-dan qüvvəyə minir.

**O.ƏSƏDOV,**
*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*

Bakı şəhəri, 2 iyul 2013-cü il

§

**Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
***(çıxarış)***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq aşağıdakı şəxslər ağır cinayətlər məhkəmələrinin hakimləri təyin edilsinlər:

**Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsi**

Novruzov Səxavət Hüseyn oğlu

...

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq aşağıdakı şəxslər inzibati-iqtisadi məhkəmələrin hakimləri təyin edilsinlər:

**Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi**

Muradov Hicran Xasay oğlu

...

4. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq aşağıdakı şəxslər rayon (şəhər) məhkəmələrinin hakimləri təyin edilsinlər:

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:

**Babək Rayon Məhkəməsi**

Bəylərli Səxavət Şahhüseyn oğlu

**Şahbuz Rayon Məhkəməsi**

Bağırov Allahverdi Əsəd oğlu

...

**Xətai Rayon Məhkəməsi**

Məmmədov Bəxtiyar Şahfirudin oğlu

...

**Sabunçu Rayon Məhkəməsi**

...

Şirinov Ziya Allahverdi oğlu

...

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 7 avqust 2013-cü il.

§

**Bir sıra birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
***(çıxarış)***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Aşağıdakı şəxslər birinci instansiya məhkəmələrinin sədrləri təyin edilsinlər:

Muradov Hicran Xasay oğlu - Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin sədri

...

Bəylərli Səxavət Şahhüseyn oğlu - Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin sədri

...

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 7 avqust 2013-cü il.

**Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı**
***(çıxarış)***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

...

3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq aşağıdakı şəxslər hərbi məhkəmələrin hakimləri təyin edilsinlər:

**Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi**

Hüseynov Səxavət Səməd oğlu

...

4. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq aşağıdakı şəxslər rayon (şəhər) məhkəmələrinin hakimləri təyin edilsinlər:

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

**Culfa Rayon Məhkəməsi**

Məmmədov Mehrab Fərmayıl oğlu

**Ordubad Rayon Məhkəməsi**

Salmanov Elşən Fizuli oğlu

**Şərur Rayon Məhkəməsi**

Aslanov Emin Dilavər oğlu

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 4 oktyabr 2013-cü il

§

## Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 9 avqust tarixli 310 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası"nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Bakı şəhəri Pirallahı Rayon Məhkəməsi yaradılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 9 avqust tarixli 310 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 715) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inziba-

ti-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissəyə aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

"2.7-1. Bakı şəhəri Pirallahı Rayon Məhkəməsi;";

2.2. 7-ci hissəyə aşağıdakı məzmunda 7.7-1-ci bənd əlavə edilsin:

"7.7-1. Bakı şəhəri Pirallahı rayonu;";

2.3. 13-cü hissəyə aşağıdakı məzmunda 13.4-1-ci bənd əlavə edilsin:

"13.4-1. Bakı şəhəri Pirallahı rayonu;";

2.4. 19-cu hissəyə aşağıdakı məzmunda 19.7-1-ci bənd əlavə edilsin:

"19.7-1. Bakı şəhəri Pirallahı rayonu;".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin yaradılması ilə əlaqədar olaraq həmin məhkəmənin fəaliyyətinin təşkili üçün onun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri və digər təşkilati-texniki vasitələrlə təmin edilməsi məqsədi ilə tədbirlər görsün;

3.2. bu məhkəmənin yaradılması ilə bağlı onun aparatının formalaşdırılması üçün maliyyə təminatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi vasitəsilə həyata keçirilən məhkəmə aparatları işçilərinin ümumi sayının artırılmasını təmin etsin;

3.3. üç ay müddətində Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 4 oktyabr 2013-cü il



# MƏHKƏMƏ FƏALİYYƏTİ

## MÜLKİ KOLLEGİYADAN

### Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2013-cü birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2013-cü ilin birinci yarısında 469 mülki işə baxılmaqla nəticə verilmişdir. 2012-ci ilin birinci yarısında həmin məhkəmələr tərəfindən 449 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında 4,45% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2013-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 20 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı cari ilin birinci yarısında 20 mülki işdən 19 işə apellyasiya qaydasında baxılaraq 13 qətnamə və 4 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qərardad ləğv edilmiş, 1 qətnamə isə dəyişdirilmişdir.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 369 və 370-ci maddələrində göstərilən əsaslarla 1 apellyasiya şikayətinin icraatına xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 5 iş
- mənzil mübahisələri – 3 iş
- vərəsəlik - 1 iş
- digər mülki işlər – 10 iş.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2013-cü ilin birinci yarısında baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında apellyasiya şikayətlərinin sayı 9,10% azalmışdır. Belə ki, 2012-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən mülki işlərlə bağlı qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 22 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında yuxarı olmuşdur. Belə ki, 2012-ci ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 449 qətnamə və qərardadlardan 1,56%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2013-cü ilin birinci yarısında məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 469 qətnamə və qərardadlardan 0,43%-i ləğv edilmiş və yaxud dəyişdirilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2012-ci ilin birinci yarısında 98,44%, 2013-cü ilin birinci yarısında isə 99,57% təşkil etmişdir.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, muxtar respublikanın məhkəmələri tərəfindən 2013-cü ilin birinci yarısında baxılmış mülki işlərin 52,67%-ni nikahın ləğvi tələbi ilə əlaqədar olan işlər təşkil etmişdir. Mənzil mübahisələri, vərəsəlik hüququ üzrə mübahisələr, mülkiyyət hüququ ilə əlaqədar mübahisələr, müqavilə öhdəliklərindən əmələ gələn tələblər, aliment tələbi və ailə münasibətləri ilə bağlı sair iddialarla əlaqədar baxılan işlərin sayı da digər mübahisələrə nisbətən daha çox olmuşdur.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2013-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan qərarların 5,26%-nin ləğv edilməsinə, 5,26%-nin isə dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2012 və 2013-cü illərin birinci yarısına dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2012-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | **Cəmi baxılıb** | **Ap.şik icr. xit.verilib** | **Q ə t n a m ə l ə r** | | | | | **Qərar-dadlar** | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | **Dəyişdirilmədən saxlanılıb** | **Dəyişdirilmişdir** | **Ləğv edilərək** | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdr |
| | | | | | **Yeni qətnamə çıxarılıb** | **İddia baxılmamış saxl.** | **İş.ic.xit ver.** | | |
| **Naxçıvan** | **10** | **1** | **3** | **1** | **1** | **2** | **1** | | 1 |
| Babək | **1** | | **1** | | | | | | |
| Şərur | **7** | | **6** | | | **1** | | | |
| Şahbuz | **3** | **1** | **1** | | | | **1** | | |
| Culfa | **1** | | **1** | | | | | | |
| **YEKUN** | **22** | **2** | **12** | **1** | **1** | **3** | **2** | | 1 |

2013-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | **Cəmi baxılıb** | **Ap.şik icr. xit.verilib** | **Q ə t n a m ə l ə r** | | | | | **Qərar-dadlar** | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | **Dəyişdirilmədən saxlanılıb** | **Dəyişdirilmişdir** | **Ləğv edilərək** | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | **Yeni qətnamə çıxarılıb** | **İddia baxılmamış saxl.** | **İş.ic.xit ver.** | | |
| **Naxçıvan** | **6** | | **6** | | | | | | |
| Babək | **4** | | **2** | | | | | | 2 |
| Şərur | **4** | | **2** | | | | | 1 | 1 |
| Şahbuz | **3** | **1** | **1** | | | | | | 1 |
| **Kəngərli** | **2** | | **2** | | | | | | |
| **Sədərək** | **1** | | | **1** | | | | | |
| **YEKUN** | **20** | **1** | **13** | **1** | | | | 1 | 4 |

Apellyasiya qaydasında 2013-cü ilin birinci yarısında ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini

bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Sədərək Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Naxçıvan Şəhər Məhkəməsi, eləcə də Babək, Culfa, Kəngərli, Ordubad və Şahbuz rayon məhkəmələri malikdirlər. Belə ki, 2013-cü ilin birinci yarısında Sədərək Rayon Məhkəməsinin çıxardığı 4 qərardan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 25%-i dəyişdirildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 75% olduğu halda, Naxçıvan Şəhər Məhkəməsinin, eləcə də Babək, Şahbuz, Ordubad, Culfa və Kəngərli rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitliyi üzrə göstəriciləri 100% təşkil etmişdir. Çünki, həmin dövrdə Naxçıvan Şəhər Məhkəməsi tərəfindən çıxarılmış 151, Şahbuz Rayon Məhkəməsi tərəfindən çıxarılmış 68, Babək Rayon Məhkəməsi tərəfindən çıxarılmış 54, Kəngərli Rayon Məhkəməsi tərəfindən çıxarılmış 44 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmiş, Culfa Rayon Məhkəməsi tərəfindən çıxarılmış 44 və Ordubad Rayon Məhkəməsi tərəfindən çıxarılmış 21 qətnamə və qərardaddan isə apellyasiya şikayəti verilməmişdir.

Digər məhkəmələrin çıxardıqları məhkəmə qərarlarının sabitliyi üzrə göstəricilər isə aşağıdakı qaydada olmuşdur:

Şərur Rayon Məhkəməsi tərəfindən 2013-cü ilin birinci yarısında çıxarılan 83 qətnamə və qərardaddan 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,20%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,80% təşkil etmişdir.

2012-ci ilin birinci yarısında baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitliyi aşağıdakı kimi olmuşdur:

- Babək Rayon Məhkəməsi – 100% (53 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);
- Culfa Rayon Məhkəməsi – 100% (33 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);
- Kəngərli Rayon Məhkəməsi – 100% (28 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);
- Ordubad Rayon Məhkəməsi – 100% (23 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);
- Sədərək Rayon Məhkəməsi – 100% (4 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);
- Şərur Rayon Məhkəməsi – 98,89% (90 qərardan 1 qətnamə, yəni 1,11%-i ləğv edilmişdir);

- Şahbuz Rayon Məhkəməsi – 98,63% (73 qərardan 1 qətnamə, yəni 1,37%-i ləğv edilmişdir);
- Naxçıvan Şəhər Məhkəməsi – 96,55% (145 qətnamə və qərardaddan 5 qətnamə, yəni 3,45%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);

Qətnamə və qərardadların sabitliyi üzrə 2012 və 2013-cü illərin birinci yarım ilinə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Babək, Culfa, Kəngərli və Ordubad rayon məhkəmələrinin əvvəl əldə olunmuş yüksək göstəriciləri dəyişməmişdir. Sədərək və Şərur rayon məhkəmələrinin sabitlik göstəricisi 2012-ci ilin birinci yarısı ilə müqayisədə aşağı düşmüş, Naxçıvan Şəhər və Şahbuz Rayon Məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə yüksəlmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmənin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, ötən ilin birinci yarısında olduğu kimi 2013-cü ilin birinci yarısında da ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2012-ci ilin birinci yarısında 145 mülki işə, 2013-cü ilin birinci yarısında isə 151 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- Şərur Rayon Məhkəməsi – 83 iş (2012-ci ilin birinci yarısında 90 işə baxılmışdır);
- Şahbuz Rayon Məhkəməsi – 68 iş (2012-ci ilin birinci yarısında 73 işə baxılmışdır);
- Babək Rayon Məhkəməsi – 54 iş (2012-ci ilin birinci yarısında 53 işə baxılmışdır);
- Culfa Rayon Məhkəməsi – 44 iş (2012-ci ilin birinci yarısında 33 işə baxılmışdır);
- Kəngərli Rayon Məhkəməsi – 44 iş (2012-ci ilin birinci yarısında 28 işə baxılmışdır);
- Ordubad Rayon Məhkəməsi – 21 iş (2012-ci ilin birinci yarısında 23 işə baxılmışdır);
- Sədərək Rayon Məhkəməsi – 4 iş (2012-ci ilin birinci yarısında 4 işə baxılmışdır);

Göründüyü kimi 2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında Şərur, Şahbuz, Ordubad rayon məhkəmələrində iş yükü azalmış, Sədərək Rayon Məhkəməsinin iş yükündə artım və ya azalma müşahidə olunmamış, Naxçıvan Şəhər Məhkəməsində, Kəngərli, Culfa, Babək rayon məhkəmələrində isə iş yükü artmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 2013-cü ilin birinci yarısında baxdığı mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlarından Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 8 kassasiya şikayəti verilmiş və kassasiya instansiyasında 4 şikayətə mahiyyəti üzrə baxılması nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 1 qətnamə və 2 qərardadı dəyişdirilmədən saxlanılmış, 1 qətnamədən verilmiş kassasiya şikayəti ilə bağlı iş üzrə icraata xitam verilmiş, 4 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2013-cü ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

# İNZİBATİ-İQTİSADİ KOLLEGİYADAN

## Məhkəmə fəaliyyətinə dair 2013-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

2013-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına ümumilikdə inzibati və iqtisadi mübahisələrlə bağlı 60 iş daxil olmuş, baxılıb nəticə verilmiş 42 işdən 24 iş inzibati mübahisələr, 18 iş isə iqtisadi mübahisələrlə bağlı işlər olmuşdur.

2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı daxil olan işlərin sayı 3,45% artmışdır. Belə ki, 2012-ci ilin birinci yarısında İnzibati-İqtisadi Məhkəmənin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı daxil olan işlərin sayı 58 olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsində 2013-cü ilin birinci yarısında baxılan işlərin böyük əksəriyyətini məcburetmə haqqında (14 iş – 33,33%), eləcə də hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında olan mübahisələrlə bağlı iddia tələblərinə dair (9 iş – yəni 21,43%) işlər təşkil etmişdir.

2013-cü ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 4 apellyasiya şikayətinə baxılmışdır. Kollegiyada həmin şikayətlərə baxılaraq 3 iş üzrə 3 qərar dəyişdirilmədən saxlanılmış, 1 iş üzrə 1 qərar ləğv edilərək işin icraatına xitam verilmişdir. Müqayisə üçün qeyd edək ki, 2012-ci ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 4 apellyasiya şikayətinə baxılmışdır. Göründüyü kimi 2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında kollegiyada baxılan inzibati mübahisələrlə bağlı işlərin sayı dəyişməmişdir.

2013-cü ilin birinci yarısında Naxçıvan MR İnzibati-İqtisadi Məhkəməsinin iqtisadi mübahisələrlə bağlı çıxardığı qətnamə və qərardadlarından verilmiş apellyasiya şikayətləri üzrə 2 apellyasiya şikayətinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq hər 2 qətnamə və qərardad dəyişdirilmədən saxlanılmışdır. 2012-ci ilin birinci yarısında isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında iqtisadi mübahisələrlə bağlı 2 işə baxılmışdır.

Göründüyü kimi 2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında kollegiyada baxılan iqtisadi mübahisələrlə bağlı işlərin sayı dəyişməmişdir.

2013-cü ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada çıxarılmış inzibati mübahisələrə dair işlər üzrə 2 qərardan kassasiya şikayəti verilmiş, kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 1 qərar dəyişdirilmədən saxlanılmış, 1 qərar isə ləğv edilərək iddia mümkünsüz sayılmışdır.

2013-cü ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada çıxarılmış iqtisadi mübahisələrə dair işlər üzrə 2 qərardaddan kassasiya şikayəti verilmiş, 1 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qərardaddan verilmiş kassasiya şikayətinə isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2013-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının çıxardığı qərarların sabitlik göstəricisi 75% təşkil etmişdir.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈

≈ ≈ ≈ ≈ ≈ ≈

≈ ≈ ≈

## CİNAYƏT KOLLEGİYASINDAN

### Məhkəmə fəaliyyətinə dair 2013-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2013-cü ilin birinci yarısında 8 nəfərin barəsində 7 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2012-ci illin birinci yarısında həmin məhkəmələr tərəfindən 14 nəfərin barəsində 13 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələrinin icraatına 2013-cü ilin birinci yarısında daxil olmuş cinayət işlərinə baxılaraq 6 cinayət işi üzrə 7 nəfərin barəsində ittiham hökmləri çıxarılmış, 1 nəfərin barəsində 1 cinayət işi üzrə icraata xitam verilmişdir.

İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri obyektə görə qruplaşdırdıqda 2012 və 2013-ci illərin birinci yarısına dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| **Cinayətlərin növü** | **2012-ci ilin I yarısı üzrə göstəricilər (məhkum edilmiş şəxslərin və işlərin sayı)** | **2013-cü ilin I yarısı üzrə göstəricilər (məhkum edilmiş şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər | 9 nəfər / 8 iş | 1 nəfər / 1 iş |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | - | 1 / 1 |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 2 / 2 | - |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | 2 / 2 | - |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | - | 1 / 1 |
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | | 2 / 1 |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | | 2 / 2 |

Cədvəldən göründüyü kimi 2012-ci ilin birinci yarısından fərqli olaraq 2013-cü ilin birinci yarısında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər azalmış, məhkəmələrin icraatına hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə və mülkiyyət əleyhinə olan cinayət işləri daxil olmamışdır. Əvvəlki yarımillikdən fərqli olaraq məhkəmələrin icraatına 2013-cü ilin birinci yarısında həyat və sağlamlıq əleyhinə, idarəetmə qaydası əleyhinə, ictimai təhlükəsizlik əleyhinə və şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayət işləri daxil olmuşdur.

2012 və 2013-cü illərin birinci yarısında məhkəmələr tərəfindən baxılmış işlər üzrə məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| **Təyin olunan əsas cəzaların növləri** | **2012-ci ilin I yarısı üzrə məhkum edilmiş şəxslərin sayı** | **2013-cü ilin I yarısı üzrə məhkum edilmiş şəxslərin sayı** |
|---|---|---|
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 11 nəfər | 6 nəfər |
| Cərimə | 1 | - |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 1 | 1 |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2012-ci ilin birinci yarısında məhkum edilmiş şəxslərin 84,62%-ni, 2013-cü ilin birinci yarısında isə məhkum olunanların 85,71%-ni təşkil etmiş, yəni 2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 1,09% artmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların həcmi isə əksinə 1,09% azalmışdır (ümumilikdə götürüldükdə).

2012 və 2013-cü illərin birinci yarısında baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2012-ci ilin birinci yarısı üzrə (məhkum edilmiş şəxslərin və cinayət işinin sayı)** | **2013-cü ilin birinci yarısı üzrə (məhkum edilmiş şəxslərin və cinayət işinin sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 6 nəfər / 5 iş | 1 nəfər / 1 iş |
| Naxçıvan Şəhər Məhkəməsi | 2 / 2 | 2 / 2 |

| | | |
|---|---|---|
| Culfa Rayon Məhkəməsi | 3 / 3 | - |
| Şərur Rayon Məhkəməsi | 1 / 1 | 2 / 2 |
| Babək Rayon Məhkəməsi | 1 / 1 | - |
| Kəngərli Rayon Məhkəməsi | - | - |
| Ordubad Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | - | 2 / 1 |
| Şahbuz Rayon Məhkəməsi | - | - |

Cədvəldən göründüyü kimi 2012-ci ilin birinci yarısından fərqli olaraq 2013-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində baxılmış cinayət işlərinin sayı azalmış, Şərur Rayon Məhkəməsində isə baxılmış cinayət işlərinin sayı artmışdır. Naxçıvan Şəhər Məhkəməsinin icraatına daxil olan cinayət işləri üzrə göstəricilər dəyişməmiş, Şahbuz, Kəngərli və Ordubad rayon məhkəmələrinin icraatına isə ötən yarımildə olduğu kimi cinayət işi daxil olmamışdır. Ötən yarımillikdən fərqli olaraq 2013-cü ilin birinci yarımilində Sədərək Rayon Məhkəməsinin icraatına cinayət işi daxil olmuş, Babək və Culfa rayon məhkəmələrinin icraatlarına isə cinayət işi daxil olmamışdır.

2013-cü ilin birinci yarısında birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılmış hökmlərdən verilmiş 2 apellyasiya şikayəti daxil olmuş, cari ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında 1 apellyasiya şikayətinə baxılmışdır. Həmin şikayət Sədərək Rayon Məhkəməsində çıxarılmış hökmdən verilmiş, hökm tətbiq olunmuş cəzanın məhkumun şəxsiyyətinə uyğun olmaması səbəbinə görə dəyişdirilmişdir.

Dəyişdirilən hökm muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2013-cü ilin birinci yarısında çıxardıqları bütün hökmlərin 16,67%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 83,33% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2012-ci ilin birinci yarısında da 2 hökm yəni, birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin 16,67%-i dəyişdirilmiş, beləliklə, hökmlərin sabitlik göstəricisi həmin yarımildə 83,33% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2013-cü ilin birinci yarısında 38 işə (materiala) baxılmışdır. 2012-ci ilin birinci yarısı ilə müqayisədə bu göstərici 90% artmışdır (həmin dövrdə 20 işə baxılmışdır).

2013-cü ilin birinci yarısında xüsusi icraat qaydasında həll edilən işlərdən 18 iş (47,37%) həbs qətimkan tədbirinin seçilməsi, 1 iş (2,63%) cəzadan şərti

olaraq vaxtından əvvəl azad etmə, 3 iş (7,89%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 7 iş (18,42%) tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi, 3 iş (7,89%) məhkum haqqında amnistiya aktının tətbiq edilməsi, 1 iş (2,63%) tutulmuş şəxsin hüquqlarının pozulması ilə bağlı şikayətlə, 1 iş ( 2,63%) həbsdə saxlanılan şəxsə işgəncə verilməsi ilə bağlı şikayətlə, 4 iş (10,53%) isə digər xarakterli məsələlər barəsində olmuşdur.

Muxtar respublikanın rayon (şəhər) məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2012 və 2013-cü illərin birinci yarısının göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2012-ci ilin birinci yarısı üzrə (şəxslərin və işlərin sayı)** | **2013-cü ilin birinci yarısı üzrə (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 10 nəfər / 10 iş | 17 nəfər / 17 iş |
| Şərur Rayon Məhkəməsi | 1 / 1 | 2 / 2 |
| Babək Rayon Məhkəməsi | - | - |
| Culfa Rayon Məhkəməsi | - | - |
| Ordubad Rayon Məhkəməsi | - | - |
| Kəngərli Rayon Məhkəməsi | 9 / 9 | 15 / 15 |
| Şahbuz Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | - | 4 / 4 |

2013-cü ilin birinci yarısında muxtar respublikanın rayon (şəhər) məhkəmələrinin xüsusi icraat qaydasında çıxardıqları qərarlardan 4 apellyasiya şikayəti verilmişdir. Sədərək Rayon Məhkəməsinin qərarlarından verilmiş 4 apellyasiya şikayəti üzrə 3 apellyasiya şikayəti təmin edilməmiş və qərarlar dəyişdirilmədən saxlanılmış, 1 apellyasiya şikayəti üzrə isə 1 qərarı ləğv edilmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrində 2013-cü ilin birinci yarısında 136 nəfərin barəsində 130 inzibati xəta haqqında işə baxılmışdır.

2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında baxılan inzibati xətalar haqqında işlərin sayı 58,54%, barələrində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı isə 63,85% artmışdır (2012-ci ilin birinci yarısında 83 nəfərin barəsində 82 inzibati xəta haqqında işə baxılmışdır).

2013-cü ilin birinci yarısında barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 24 nəfərə (17,65%) inzibati həbs, 88 nəfərə (64,70%) inzibati cərimə, 16 nəfərə (11,76%) xəbərdarlıq, 4 nəfərə (2,94%) inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, 4

nəfərə (2,94%) isə inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuşdur.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2012 və 2013-cü illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **İnzibati xətanın növləri** | **2012-ci ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** | **2013-cü ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Xırda xuliqanlıq | 21 nəfər / 21 iş | 9 nəfər / 9 iş |
| Aksiz markası olmayan məhsulların, malların satılması | 12 nəfər / 12 iş | 3 nəfər / 3 iş |
| Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması | 2 nəfər / 2 iş | 9 nəfər / 9 iş |
| Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma | 24 nəfər / 24 iş | 10 nəfər / 10 iş |
| Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi | 2 nəfər / 2 iş | 6 nəfər / 6 iş |
| Nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi | - | 13 nəfər / 13 iş |
| Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması | - | 1 nəfər / 1 iş |
| Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama | 11 nəfər / 10 iş | 5 nəfər / 4 iş |
| Malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi | 2 nəfər / 2 iş | 2 nəfər / 2iş |
| Məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməsi | - | 5 nəfər / 5 iş |
| Balıq ehtiyyatlarının mühafizəsi və ov qaydalarının pozulması | - | 3 nəfər / 3 iş |
| Digər inzibati xətalar | 9 nəfər / 9 iş | 70 nəfər / 65 iş |

Göründüyü kimi 2012-ci ilin birinci yarısı ilə müqayisədə 2013-cü ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən baxılan nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması ilə bağlı barəsində inzibati tənbeh tədbiri tətbiq edilən şəxslərin sayı 3 dəfə, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi ilə bağlı barəsində inzibati tənbeh tədbiri tətbiq edilən şəxslərin sayı 2 dəfə, digər inzibati xətalarla bağlı barəsində tənbeh tədbiri tətbiq olunan şəxslərin sayı 7 dəfə artmışdır. 2012-ci ilin birinci yarısından fərqli olaraq 2013-cü ilin birinci yarısında qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma ilə bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 58,33%, xırda xuliqanlıqla bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 57,14%, polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 54,54%, aksiz markası olmayan məhsulların, malların satılması ilə əlaqədar olan inzibati xətalar üzrə barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 75% azalmışdır. Malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi ilə bağlı olan inzibati xətalar üzrə göstəricilər dəyişməmişdir. Ötən yarımildən fərqli olaraq 2013-cü ilin birinci yarısında rayon (şəhər) məhkəmələrinin icraatına nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi, məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməsi və balıq ehtiyatlarının mühafizəsi və ov qaydalarının pozulması ilə bağlı olan inzibati xətalar üzrə işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2012 və 2013-cü illərin birinci yarısına dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2012-ci ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** | **2013-ci ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 21 nəfər / 21 iş | 32 nəfər / 32 iş |
| Şərur Rayon Məhkəməsi | 22 / 21 | 27 / 21 |
| Babək Rayon Məhkəməsi | 6 / 6 | 16 / 16 |
| Culfa Rayon Məhkəməsi | 12 / 12 | 14 / 14 |
| Ordubad Rayon Məhkəməsi | 10 / 10 | 17 / 17 |
| Kəngərli Rayon Məhkəməsi | 6 / 6 | 11 / 11 |
| Şahbuz Rayon Məhkəməsi | 2 / 2 | 15 / 15 |
| Sədərək Rayon Məhkəməsi | 4 / 4 | 4 / 4 |

2013-cü ilin birinci yarısında muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 3 apellyasiya şikayəti daxil olmuşdur. Naxçıvan Şəhər Məhkəməsinin 1 qərarından və Şərur Rayon Məhkəməsinin 2 qərarından verilən həmin apellyasiya şikayətlərinə baxılaraq qərarlar dəyişdirilmişdir.

Muxtar respublikanın şəhər və rayon məhkəmələri tərəfindən 2013-cü ilin birinci yarısında inzibati xətalara dair işlər üzrə çıxarılan qərarların 2,31%-i dəyişdirildiyindən qərarların sabitlik göstəricisi 97,69% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının 2013-cü ilin birinci yarısında çıxardığı cinayət işləri üzrə hökm və qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 3 kassasiya şikayəti verilmiş və kassasiya instansiyasında 1 şikayətə baxılması nəticəsində 1 qərar dəyişdirilmədən saxlanılmış, 2 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2013-cü ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

## *HƏRBİ KOLLEGİYADAN*

### Hərbi kollegiyanın 2013-cü ilin birinci yarısının yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "HUDOC" elektron məlumat bazası

"HUDOC" məlumat bazası[1] İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) müasir tipli, istifadəsi asan olan rəsmi elektron informasiya bazasıdır. Bir sıra məlumatlarla yanaşı, bazada Avropa Məhkəməsinin qəbul etdiyi qərarların tam autentik mətni yerləşdirilmişdir. Bu bazanın digər məlumat mənbələrindən üstünlüyünün əsas xüsusiyyəti onun daha etibarlı olmasıdır. Başqa sözlə, müəyyən qərarların bəzi dünya dövlətlərinin dillərinə tərcümə edilmiş variantlarına internet şəbəkəsinin bir sıra ünvanlarında rast gəlmək mümkündür, lakin onlar nə qərarların çoxluğu və istənilən kriteriya üzrə axtarışın asanlılığı, nə də ki qərarların tərcümə mətnlərinin etibarlılığı baxımından "HUDOC" bazasının imkanlarını heç cür əvəz edə bilməz.

Məlumat bazasında Avropa Şurasına üzv olan bütün dövlətlərə qarşı qəbul edilmiş qərarlar yayımlanmaqdadır. Bazadakı qərarların əksəriyyəti ingilis və fransız dillərində olsa da, başqa dillərə tərcümə edilmiş qərarlar da az deyil *(bu haqda bir qədər sonra ətraflı bəhs ediləcək).*




Qərarlarla, eləcə də "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının (bundan sonra – Konvensiya) və ona əlavə edilmiş protokolların maddələri üzrə

[1] http://www.echr.coe.int/echr/en/hudoc

bəyan olunan ümumi və konkret prinsiplərlə tanışlıq məqsədilə Məhkəmə saytının ana səhifəsindəki “HUDOC məlumat bazası”ndan (“HUDOC database”) “HUDOC axtarış səhifəsi”nə (“HUDOC Search Page”) daxil olmaq lazımdır.

Burada səhifənin sol küncündə yerləşdirilmiş “Axtarışınızı daraldın” (“Narrow your search”) başlığı altında aşağıdakı bölmələr mövcuddur:

- “Sənədlər toplusu” (“Document Collections”);
- “Filtrlər” (“Filters”);
- “Açar sözlər” (“Keywords”);
- “Əlavə filtrlər” (“More Filters”).

“Sənədlər toplusu” adlı bölmədə “Presedent hüququ” (“Case-Law”) adlanan Avropa Məhkəməsinin baxdığı bütün işlər üzrə qəbul etdiyi qərar və qərardadlar yerləşdirilmişdir.

“Presedent hüququ” başlığı altında aşağıdakı alt-kateqoriyalar yerləşdirilmişdir:

**“Judgments” (Mahiyyəti üzrə Qərarlar):**




Burada Məhkəmənin “Böyük Palata” (“Grand Chamber”), “Palata” (“Chamber”), yaxud da “Komitə”dən (“Committee”) ibarət tərkibdə iş üzrə konvensiya müddəalarının pozulub-pozulmaması ilə bağlı qəbul etdiyi qərarları öz əksini tapmışdır. Məsələn, axtarış zamanı Böyük Palatada və ya Palatada baxılan işlər üzrə qəbul edilmiş qərarların tapılması üçün müvafiq olaraq “Böyük Palata”, “Palata” bəndi qarşısında seçim etmək lazımdır. Bütün qərarlar nəzərdən keçirilmək istənilirsə, “Judgments” yarımbəndi[2] seçilməlidir. Qeyd edək ki, hazırda bazada Böyük Palatanın 2000-dən çox, Palatanın 37000-dən çox, Komitənin isə 1500-dən çox belə qərarı mövcuddur.

**“Decisions” (“Qərardadlar”):**

[2] “Judgments” (“Qərarlar”) yarımbəndində Avropa Məhkəməsinin mahiyyəti üzrə həll etdiyi işlərə dair qərarlar yerləşdirilmişdir.

Bu bölmədə Məhkəmənin ərizələrin qəbul edilə bilməyən və ya qəbul edilə bilən elan edilməsi ilə bağlı qərardadları öz əksini tapmışdır. Bu bölmədə "Böyük Palata" ("Grand Chamber"), "Palata" ("Chamber") və ya "Komitə" ("Committee") yarımbəndi qarşısında seçim etməklə onlar tərəfindən qəbul edilmiş qərardadları seçmək mümkündür. "Komissiya" ("Commission") yarımbəndində keçmiş İnsan Hüquqları üzrə Avropa Komissiyası tərəfindən 31 oktyabr 1999-cu il tarixədək qəbul edilmiş qərarlar, "Screening Panel" başlığı altında isə 1 noyabr 1998-ci il tarixdə 9 saylı Protokolun qüvvədən düşməsi ilə ləğv olunmuş "Ələmə Komitəsi"nin 1959-cu ildən 1998-ci ilin oktyabr ayınadək olan qərardadları yerləşdirilmişdir. Bazada hazırda ümumilikdə 37000-dən artıq qərardad mövcuddur.

**"Communicated Cases" ("Məlumat verilən işlər"):**

Burada Məhkəmənin icraatda olan işlə bağlı cavabdeh dövlətə verdiyi məhkəmə sorğuları, bildirişləri öz əksini tapmışdır.

**"Legal Summaries" ("Hüquqi icmallar"):**

Burada Məhkəmə tərəfindən qəbul edilən qərarlar, qərardadlar, habelə icraatda olan işlərlə bağlı Məhkəmənin Katibliyi tərəfindən hazırlanan hüquqi icmallar öz əksini tapmışdır. Bu icmallar konvensiyanın maddələri üzrə sistemləşdirilir və məhkəmə üçün heç bir məcburi hüquqi əhəmiyyət kəsb etmir. Bazada 4000-dən artıq "Hüquqi icmal" yerləşdirilmişdir.

**"Advisory Opinions" ("Məsləhətçi rəylər"):**

Buraya Məhkəmənin Nazirlər Komitəsinin sorğusu ilə Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhinə dair hüquqi məsələlər üzrə məsləhətçi rəyləri daxildir.

**"Reports" ("Hesabatlar"):**

Burada 31 oktyabr 1999-cu il tarixədək keçmiş İnsan Hüquqları üzrə Avropa Komissiyası tərəfindən qəbul olunmuş hesabatlar öz əksini tapmışdır.

**"Resolutions" ("Qətnamələr"):**

Burada Avropa Şurası Nazirlər Komitəsi tərəfindən Məhkəmə qərarları ilə dövlətlərin həyata keçirməli olduğu təşkilati və qanunvericilik tədbirlərinin icrası ilə bağlı qəbul olunmuş qətnamələr öz əksini tapmışdır.

"Sənədlər toplusu" bölməsində "Press Collection" ("Mətbuat üçün toplu") yarımbəndi də vardır ki, burada işlərin qısa icmalı əks olunmuşdur. Bu isə mətbuat və ictimaiyyət nümayəndələrinin işlər barədə məlumat əldə etməsinə geniş imkan yaradır.




"FILTERS" ("Filtrlər") bölməsində altı yarımbölmə – "LANGUAGE" (dövlətlərə qarşı qəbul olunan qərarların başqa dillərə tərcümə edilmiş variantları), eləcə də "IMPORTANCE" (əhəmiyyət), "STATE" (üzv dövlətlərə qarşı qəbul olunan), "ARTİCLE" (Konvensiyanın və ona əlavə edilmiş protokolların maddələri üzrə), "NON-VIOLATION" (Konvensiya və ona əlavə edilmiş protokolların maddələri üzrə pozuntunun aşkar olunmaması), habelə "VIOLATION" (Konvensiya və ona əlavə edilmiş protokolların maddələri üzrə pozuntunun aşkar olunması) vardır.

Bu yarımbölmələr barədə məlumat verək.

"LANGUAGE" ("Dil") yarımbölməsinin köməyi ilə bazada olan dillərdəki qərarlarla tanış ola bilərik. Avropa Məhkəməsi yalnız ingilis və fransız dillərində yayımlanan qərarların rəsmiliyini tanıyır, lakin digər qeyri-rəsmi dillərdə olan qərarların keyfiyyəti və mətni üçün heç bir məsuliyyət daşımır.

Bu yarımbölmədə üzv dövlətlərin dillərinə tərcümə olunan qərarlar ölkələrin coğrafi adları üzrə alfabetik olaraq "A" hərfindən "Z" hərfinə, eləcə də tərsinə, yəni "Z" hərfindən "A" hərfinə, habelə həmin dillərdə olan qərarların azalan say miqdarına görə çoxdan aza və azdan çoxa doğru sıralanmışdır.




Bazada ən çox qərar ingilis və fransız dillərindədir (hər iki dildə 15000-dən çox). Azərbaycan dilində 100-ə yaxın qərar vardır.

Qeyd edək ki, xarici dillərdə olan qərarlar yalnız öz dövlətlərinə qarşı olan işlərlə məhdudlaşmayıb bütövlükdə hansı dövlətə qarşı olmasından asılı olmayaraq yerləşdirilmişdir.

Bu yarımbölmədə "More" ("Çox") linkinə daxil olmaqla dilləri və qarşılarındakı qərar saylarını (məsələn, German – 30, Turkish – 75, Russia – 481 və s.) görmək olar.




"IMPORTANCE" ("Əhəmiyyət") adlı yarımbölmədə qəbul edilən qərarların əhəmiyyətlilik dərəcəsi üzrə üç pilləli (3 – az əhəmiyyətli, 2 – orta əhəmiyyətli, 1 – yüksək əhəmiyyətli) sistem müəyyənləşdirilmiş, sözügedən bölməyə "Case Reports" ("Məhkəmə qərarlarının məcmusu") adlı hissə əlavə edilmişdir.

3-cü pillədə şikayətin qəbuledilən olması barədə qərarlar öz əksini tapıb. Bu qərarlar az əhəmiyyətli xarakterə malik olmaqla yanaşı, o qədər də böyük hüquqi maraq doğurmurlar. Həmin işlərə artıq mövcud olan presedent hüququ tətbiq edilir.

2-ci pillədə məhkəmənin mövcud presedent hüququna köklü dəyişikliklər etməsə də, ümumi presedent hüququnun inkişafında əhəmiyyətli rola malik olan müəyyən yeniliklər gətirmiş qərarlar yerləşdirilib.

1-ci pillədə isə məhkəmənin mövcud presedent hüququnun dəyişiklik və dəqiqləşdirmə aparmaqla konkret dövlətə qarşı və ya ümumi presedent hüququnun inkişafında əhəmiyyətli rola malik olan qərarları yerləşdirilib.

"Case Reports" ("Məhkəmə qərarlarının məcmusu") adlı hissədə tərəflərin - ərizəçinin iddiasına və cavabdeh dövlətin şikayəti ilə bağlı cavabına dair, yaxud etirazın qəbul və ya qəbuledilməz hesab olunması, Konvensiyanın və ona əlavə edilmiş protokolların konkret maddələrinin pozuntusu barədə məhkəmənin qərarları, keçmiş Komissiyanın qərarları və hesabatları yayımlanmaqdadır.




Bu hissədə "More" ("Çox") linkində qərarlar alfabetik olaraq "A" hərfindən "Z" hərfinə, eləcə də tərsinə, yəni "Z" hərfindən "A" hərfinə, habelə qərarların azalan say miqdarına görə çoxdan aza və azdan çoxa doğru sıralanmışdır.

"STATE" ("DÖVLƏT") adlı yarımbölmədə hər hansı dövlətə qarşı qəbul olunan qərarlarla tanış olmaq mümkündür.

Bu yarımbölmədə "More" ("Çox") linkinə daxil olmaqla dilləri və qarşılarındakı qərar saylarını görmək olar.

"ARTİCLE" ("Maddə") yarımbölməsinə Konvensiyanın və ona əlavə protokolların maddələri üzrə həm pozuntunun müəyyən edildiyi, həm də müəyyən edilmədiyi hallarda qəbul olunan qərarlar daxil edilmişdir.

Bu yarımbölmədə "More" ("Çox") linkində qərarlar alfabetik olaraq "A" hərfindən "Z" hərfinə, eləcə də tərsinə, yəni "Z" hərfindən "A" hərfinə, habelə qərarların azalan say miqdarına görə çoxdan aza və azdan çoxa doğru sıralanmışdır. Qeyd edək ki, bölmədə yerləşdirilmiş qərarların ən çoxu Konvensiyanın 6-cı maddəsi (ədalətli məhkəmə araşdırması hüququ) ilə bağlıdır.

"NON-VIOLATION" ("Pozuntu aşkarlanmayıb") və "VIOLATION" ("Pozuntu aşkarlanıb") yarımbölmələrində Konvensiya və ona əlavə protokolların maddələri ilə bağlı pozuntunun müəyyən edilməsi və müəyyən edilməməsi barədə qərarlar üzrə bölgü ayrı-ayrılıqda aparılmışdır. Bu yarımbölmələr "ARTİCLE" ("Maddə") yarımbölməsinə oxşardır və hər üç yarımbölmədə "More" ("Çox") linki analoji funksiyanı yerinə yetirir.

"KEYWORDS" ("Açar sözlər") filtirinin köməyi ilə açar sözlərdən istifadə olunmaqla mətndə oxşar sözlər olan sənədlərin axtarışını həyata keçirmək mümkündür. Çox vaxt açar sözlər birbaşa Konvensiyada və onun əlavə protokollarında əks olunan terminlərdən götürülmüşdür. Bu filtirdə açar sözlərin ardıcıllığı həmin sözlərdən istifadə olunan qərarların sayına görə azalan say qaydası üzrə düzülmüşdür.




Ümumi təsəvvür yaratmaq üçün siyahısı verilən açar sözlərin əvvəlində maddə, sonunda isə qərarların sayı göstərilir. Məsələn, "(Art.6) Right to a fair trial" – "(Maddə 6) Ədalətli məhkəmə araşdırması hüququ" (56000-dən çox qərar var); "(ART. 41) Just satisfaction-{general}" – "(Maddə 41) Ədalətli kompensasiya {ümumi}" (22000-dən çox qərar var); "(Art.6-1) Reasonable time" – "(Maddə 6-1) Ağlabatan müddət" (18000-dən çox qərar var) və.s. Burada da "More" ("Çox") linkinin köməyindən istifadə nəzərdə tutulur.

"MORE FILTERS" ("Daha çox filtirlər") bölməsi 5 – "DATE" ("Tarix"), "COURTS" ("Məhkəmələr"), "JUDGES" ("Hakimlər"), "ORIGINATING BODY" ("Qərarı çıxarmış orqan"), "ORGANISATION" ("Təşkilat") yarımbölmələrdən ibarətdir.




"DATE" ("Tarix") yarımbölməsində qəbul edilən qərarların tarixlər üzrə təsnifatı aparılmışdır: "Last week" ("Ötən həftə"), "Last month" ("Ötən ay"), "Last 6 months" ("Ötən 6 ay"), "Last year" ("Ötən il"), "Last 5 years" ("Ötən 5 il"), "Last 10 years" ("Ötən 10 il") meyarı üzrə zamana görə bölgü aparılmışdır.

"COURTS" ("Məhkəmələr") yarımbölməsində konkret milli və ya beynəlxalq məhkəmələrə münasibətdə Məhkəmənin tövsiyəsini yönəltdiyi qərarlar yayımlanmaqdadır.

"JUDGES" ("Hakimlər") yarımbölməsində hakimlər üzrə təsnifat aparılmışdır, başqa sözlə, hakimlərin iştirakları ilə baxılan işlər onların adları altında qruplaşdırılmışdır.

"ORIGINATING BODY" ("Qərarı çıxarmış orqan") yarımbölməsində Avropa Məhkəməsinin birinci, ikinci, üçüncü və dördüncü, eləcə də digər seksiyalarında, Palatada, Böyük Palatada, Komitədə, Nazirlər Komitəsində baxılan işlər üzrə qəbul edilmiş qərarlar ayrı-ayrı təsnifatlar üzrə yerləşdirilmişdir.

"ORGANISATION" ("Təşkilat") yarımbölməsində Avropa Məhkəməsinin konkret milli və beynəlxalq təşkilatlara münasibətdə tövsiyəsini yönəltdiyi qərarlar yayımlanmaqdadır. Qərarların təsnifatına gəlincə, onlar sözügedən təşkilatlar üzrə aparılmışdır.

Deyilənləri yekunlaşdırsaq, o qənaətə gələ bilərik ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "HUDOC" portalı kifayət qədər geniş bazaya və axtarış imkanlarına malik olan faydalı informasiya mənbəyidir.

***Mənbə:*** *Material Avropa İnsan Hüquqları Məhkəməsinin http://www.echr.coe.int/echr/en/hudoc rəsmi saytının materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

**Əli Kərim oğlu Allahverdiyev**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin hakimi*

## Xüsusi ittiham qaydasında şikayətlər üzrə icraatın xüsusiyyətləri

08 dekabr 1960-cı ildə təsdiq olunmuş Azərbaycan SSR Cinayət Prosessual Məcəlləsində xüsusi ittihamın tətbiq dairəsi ilə bağlı bir çox məhdudiyyətlər müəyyən olunmuşdu. Sözü gedən məcəllənin 105-ci maddəsində nəzərdə tutulurdu ki, Azərbaycan Respublikası CM-in 106-cı (qəsdən bədənə yüngül xəsarət yetirmə), 108-ci maddənin 1-ci hissəsində (ağırlaşdırıcı hallar olmadan döymə və işgəncə vermə), 121-ci maddənin 1-ci və 2-ci hissələrində (ağır cinayətdə ittiham etmə istisna olmaqla, böhtan), 122-ci maddəsində (təhqir) nəzərdə tutulan cinayətlər haqqında cinayət işi başlama yalnız zərər çəkmiş şəxsin və ya onun nümayəndəsinin şikayəti ilə ola bilər. Həmin maddəyə görə zərər çəkmiş şəxs hökm çıxarılanadək müqəssirlə barışdıqda, işə məhkəmə tərəfindən xitam verilməli idi.

Həmin maddədən o da aydın olurdu ki, aşağıdakı hallarda zərər çəkmiş şəxsin iradəsindən asılı olmayaraq, prokuror öz təşəbbüsü ilə iş başlamalı və ya başlanılmış işə qarışmalı idi:

1. Zərər çəkmiş şəxs köməksiz vəziyyətdə, müttəhimdən asılı halda olduqda və öz hüquqlarını şəxsən müdafiə etməyə imkanı olmadıqda;
2. İşin həlli ictimai xarakter daşıdıqda.

Göstərilən hallar mövcud olduqda zərər çəkmiş şəxs müttəhimlə barışdıqda belə işin icraatına xitam verilmirdi. Başqa sözlə, bu zaman zərər çəkmiş şəxsin ittihamdan imtina etməsi, yəni onun iradə ifadəsi nəzərə alınmırdı. Bu isə, ictimai ittihamın üstün və hökmran mövqeyini açıq-aşkar nümayiş etdirirdi.

Həmin Məcəllənin 105-ci maddəsində ictimai-xüsusi ittiham qaydasında həyata keçirilən cinayət təqibi nəzərdə tutulmurdu. CM-in 109-cu maddəsinin 1-ci hissəsi (ağırlaşdırıcı hallar olmadan zorlama) ilə cinayət işinin başlanılması yalnız zərər çəkmişin şikayəti ilə ola bilərdi və onun müttəhimlə barışması işin icraatına xitam verilməsi üçün əsas sayılmırdı. Bununla yana-

şı, CPM-in 268-ci maddəsində yuxarıda qeyd olunan hallarda zərər çəkmişin məhkəmə baxışında ittihamı müdafiə etmək hüququ tanınırdı.

Yeni qəbul edilmiş cinayət-prosessual qanunvericiliyi insan hüquq və azadlıqlarını, eləcə də şəxsiyyətin maraqlarını üstün tutaraq cinayət prosesində dispozitivlik prinsipinə daha çox yer vermiş, bu prinsip prosessual qanunvericiliyin müxtəlif normalarında öz əksini tapmışdır.

Sözü gedən prinsipin zərər çəkmiş şəxsə münasibətdə konkret təzahür formaları aşağıdakılardan ibarətdir:

- pozulmuş hüquqların müdafiəsi məqsədilə məhkəməyə müraciət etmək hüququ;
- tələbin həcmi və əsaslarının müəyyənləşdirilməsi, habelə onları dəyişdirmək imkanları;
- mübahisəli maddi hüquqlara və onların müdafiəsinin prosessual vasitələrinə dair sərəncam verilməsi;
- proses hərəkətlərinə təsir edən prosessual hüquqlara sərəncam verilməsi.

Göründüyü kimi dispozitivlik prinsipi cinayət mühakimə icraatının gedişində zərər çəkmiş şəxsə müdafiə olunmaq üçün geniş prosessual imkanlar yaradır. Bu isə qüvvədən düşmüş cinayət prosessual qanunvericiliklə müqayisədə hazırda qüvvədə olan AR CPM-də cinayət təqibinin növləri ilə bağlı münasibətlərin tam yeni və müasir dəyərlər əsasında tənzimlənməsindən xəbər verir.

CPM-in 37.1-ci maddəsinə görə cinayətin xarakterindən və ağırlıq dərəcəsindən asılı olaraq cinayət təqibi CPM-in müddəalarına uyğun xüsusi, ictimai-xüsusi və ictimai ittiham qaydasında həyata keçirilir.

Xüsusi və ictimai-xüsusi ittihamın (CPM-in 37.5-ci maddəsindəki istisna nəzərə alınmaqla) mahiyyəti ondan ibarətdir ki, cinayət mühakimə icraatının başlanması, bir qayda olaraq, zərər çəkmiş şəxsin iradəsindən asılı olur.

CPM-in 37.2-ci maddəsinə əsasən xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147 (böhtan), 148 (təhqir), 165.1 (ağırlaşdırıcı hallar olmadan müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma) və 166.1-ci (ağırlaşdırıcı hallar olmadan ixtiraçılıq və patent hüquqlarını pozma) maddələrində göstərilən cinayətlər üzrə həyata keçirilir. AR CPM-in 37.2-ci maddəsinə əsasən zərər çəkmiş şəxsin təqsirləndirilən şəxslə barışması xüsusi ittiham qaydasında cinayət təqibinin həyata keçirilməməsinə, belə barışma məhkəmə müşavirə otağına gedənədək əldə olunduqda isə cinayət təqibinə xitam verilməsinə şərtsiz əsasdır. Qeyd edək ki, cinayət prosessual qanunvericilik birinci instansiya məhkəməsində yekun məhkəmə qərarı çıxarılana-

dək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda iş üzrə icraata xitam verilməsini nəzərdə tutsa da, apellyasiya şikayətinə baxılarkən zərər çəkmiş şəxsin belə bir hüquqdan istifadə etməsini nəzərdə tutmamışdır. Hesab edirik ki, xüsusi ittiham qaydasında şikayət üzrə icraatın başlanması zərər çəkənin iradəsindən asılı olduğundan bu hüquqdan onun apellyasiya şikayətinə baxılarkən də istifadə etməsi üçün maneə yoxdur. Ona görə də belə hallar apellyasiya icraatı zamanı mövcud olarsa, CPM-in 391.3.9 və ya 398.1.3-cü maddələrində nəzərdə tutulmuş əsaslarla icraata xitam verilməlidir.

Xüsusi ittiham qaydasında cinayət təqibini nəzərdə tutan qanunvericilik zərər çəkmiş şəxsə imkan verir ki, sözügedən cinayət əməlləri ilə onun hüquqlarına və qanuni maraqlarına zərər vurulduğu halda təqsirkar şəxsin cinayət məsuliyyətinə cəlb olunması üçün məhkəməyə müraciət etsin, habelə xüsusi ittihamı müdafiə etməyi özü həll etsin. Xüsusi ittihamın cinayət təqibinin növü kimi fərqləndirilməsi zərər çəkmiş şəxsin spesifik maraqlarının nəzərə alınmasından qaynaqlanır. Məhz buna görə həmin xarakterli şikayətlər üzrə işlər xüsusi ittihamlı işlər adlandırılır.

Beləliklə, xüsusi ittiham qaydasında təqib olunan hüquq pozuntularının səciyyəvi xarakterinə uyğun olaraq bu kateqoriyadan olan cinayətlər üzrə icraatın spesifik cəhətlərini aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147, 148, 165.1 və 166.1-ci maddələrində nəzərdə tutulan cinayət əməlləri üzrə ittihamı yalnız zərər çəkmiş şəxs (xüsusi ittihamçı) başlayır və bununla da ittihamçı funksiyasını həyata keçirir;

2. Xüsusi ittiham qaydasında icraat zərər çəkmişin şikayəti və onun təqdim etdiyi sübutlar əsasında başlanır, məhkəmə qarşısında təqsirləndirilən şəxsin təqsirliliyini sübut etmək vəzifəsi də onun üzərinə qoyulur;

3. Cinayət təqibinin digər növlərindən fərqli olaraq bu ittiham növündə zərər çəkmiş şəxs yalnız özünün prosessual hüquqlarını həyata keçirməkdə deyil, həm də prosesin predmeti, yəni ittiham haqqında sərəncam verməkdə azad və müstəqildir.

AR CPM-in 7.0.26-cı maddəsinə görə xüsusi ittihamçı CPM-də nəzərdə tutulmuş qaydada və hallarda məhkəmədə ittiham irəli sürən və onu müdafiə edən zərər çəkmiş şəxsdir.

Xüsusi ittihamçı ilə bağlı münasibətlər Azərbaycan Respublikası CPM-in 88-ci maddəsi ilə tənzimlənmişdir.

Qeyd edək ki, qüvvədən düşmüş Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi yalnız zərər çəkmiş şəxsin şikayəti mövcud olduğu halda CM-in 106-cı (qəsdən yüngül xəsarət yetirmə), 108-ci maddəsinin 1-ci

hissəsi (döymə və işgəncə vermə), 121-ci (böhtan), 122-ci (təhqir) maddələrində nəzərdə tutulmuş cinayət əməllərinin törədilməsinə görə məcburi olan cinayət işinin başlanmasını nəzərdə tutmaqla yanaşı, həmin məcəllənin 127-ci maddəsi CM-in 121-ci maddəsinin 2-ci və 3-cü hissələri, 108-ci maddənin 2-ci hissəsində nəzərdə tutulan əməllərin törədilməsi ilə əlaqədar işlər üzrə ibtidai istintaq aparılmasını məcburi hesab edirdi.

Hazırda qüvvədə olan cinayət prosessual qanunvericilikdə isə xüsusi ittihamlı işlərlə əlaqədar, yəni Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 147, 148, 165.1 və 166.1-ci maddələrində nəzərdə tutulan cinayətlərlə bağlı şikayətlər üzrə istintaq hərəkətlərinin aparılması nəzərdə tutulmur. Bunun əsas səbəbi isə yuxarıda adı çəkilən cinayət əməllərinin şəxsin ayrılmaz hüquqlarına qəsd etməsi, nəticədə şəxslə bağlı qeyri-əmlak münasibətlərinin zərər görməsi ilə bağlıdır. Bu zaman şəxsə imkan yaradılır ki, individual xarakterli şəxsi məsələsini heç bir dövlət orqanının müdaxiləsi olmadan özü həll etsin.

Bundan başqa, sözü gedən cinayət əməlləri ilə bağlı cinayət işi başlanılmadan cinayət təqibinin aparılması bu şikayətlərin az əhəmiyyətli olması, mürəkkəb tərkibli olmaması və törədilən əməllərin aşkarlığı nəzərə alınmaqla həmin şikayətlərə operativ baxılmasını təmin etmək zərurətindən irəli gəlir. Ona görə də bu hallarda xüsusi ittiham qaydasında verilmiş şikayət ittiham aktına bərabər tutulur.

Xüsusi ittiham qaydasında şikayətlər üzrə ibtidai istintaq hərəkətləri aparılmadığından şikayət üzrə cinayət əməlinin tövsifi zamanı müəyyən çətinliklər yaranması halı istisna edilmir. Məhkəmə təcrübəsi göstərir ki, bu xarakterli şikayətlərə baxılarkən bəzən xüsusi ittihamçının irəli sürdüyü ittihamdan daha ağır ittihamın irəli sürülməsi məsələsi meydana gəlir. Belə olan halda "təqsirləndirilən şəxsə ağır ittihamın irəli sürülməsi məqsədilə şikayət üzrə hansı hərəkətlər edilməlidir və material üzrə hansı qərarlar qəbul olunmalıdır?" sualı ortaya çıxır.

Əvvəla, yuxarıda qeyd olunduğu kimi qanunvericilikdə bu xarakterli şikayətlər üzrə ibtidai istintaq hərəkətlərinin aparılması nəzərdə tutulmur. Azərbaycan Respublikası CPM-in 213.3-cü maddəsinə əsasən təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror xüsusi ittiham qaydasında təqib edilən cinayətlər haqqında zərər çəkmiş şəxslərin şikayətlərini məhkəmə aidiyyəti üzrə birinci instansiya məhkəməsinə göndərməlidir. Məhkəmənin hazırlıq iclasında xüsusi ittihamçının şikayəti üzrə ərizə icraata qəbul edilərkən onun müvafiq maddə ilə məhkəməyə verilməsi şərti xarakter daşıyır. Məhz bu səbəbə görə də təqsir-

ləndirilən şəxsin əməlində xüsusi ittiham qaydasında şikayət üzrə Azərbaycan Respublikası CPM-in 37.2-ci maddəsində sadalanan cinayətlər üzrə ittihamın ağırlaşdırılmasına səbəb ola biləcək hal xüsusi ittiham qaydasında şikayətə baxılan zaman da aşkara çıxa bilər. Bu zaman xüsusi ittihamçının müvafiq vəsatəti olduqda məhkəmə təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihamı xüsusi ittiham qaydasında təqib olunan cinayətlər kateqoriyasından çıxmaması şərti ilə dəyişə bilər. İttihamın dəyişdiriləcəyi halda xüsusi ittihamlı iş ictimai-xüsusi və ya ictimai ittiham qaydasında təqib edilməli işlərə xas olan əlamətlərə malik olarsa, bu halda CPM-in 318.2 maddəsində nəzərdə tutulmuş qaydada əsaslandırılmış qərar qəbul etməklə xüsusi ittiham qaydasında şikayətlərə baxılması üzrə toplanmış materialları təqsirləndirilən şəxsə ictimai xüsusi və ya ictimai ittiham qaydasında təqib olunan əmələ görə ittiham irəli sürülməsi məsələsinin həlli üçün aidiyyəti üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərməlidir. İctimai-xüsusi və ya ictimai ittiham qaydasında işlərdən fərqli olaraq xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmə baxışının keçirilməsi üçün zərərçəkmiş şəxs tərəfindən məhkəməyə verilən şikayətin məzmunu Azərbaycan Respublikası CPM-in 293.3.1-293.3.7-ci maddələrinin tələblərinə uyğun olmalıdır.

Təcrübədə bəzən xüsusi ittiham qaydasında şikayətlər məhkəməyə deyil, prokurorluq və ya polis orqanlarına ünvanlanır və sonra həmin orqanlar tərəfindən şikayətlər baxılması üçün məhkəmələrə göndərilir. Belə olan halda şikayətə məhkəmələr tərəfindən baxılmalıdırmı? Azərbaycan Respublikası CPM-in 213.3-cü maddəsində nəzərdə tutulur ki, təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror xüsusi ittiham qaydasında təqib edilən cinayətlər haqqında zərər çəkmiş şəxslərin şikayətlərini məhkəmə aidiyyəti üzrə birinci instansiya məhkəməsinə göndərməlidir. Ona görə də prokurorluq və ya polis orqanlarından daxil olmuş şikayətlər üzrə irəli sürülmüş həmin ittiham xüsusi ittihamçı tərəfindən məhkəmədə müdafiə olunarsa, bu şikayət üzrə icraat mümkündür və bu halda xüsusi ittihamçının əlavə şikayət ərizəsi ilə məhkəməyə müraciət etməsi halı da istisna deyil və əməlin məhz həmin şəxs tərəfindən törədilməsinin nə ilə təsdiq edildiyinin, şikayətdə göstərilən cinayətin törədilmə hallarının konkret olaraq hansı şəxslərin ifadələri ilə, hansı sənədlərlə, habelə hansı digər sübutlarla təsdiq edildiyinin və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında xahişinin göstərilməsi zəruridir.

Azərbaycan Respublikası CPM-in 242.1-ci maddəsində göstərilir ki, əldə edilmiş (mövcud) sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin material-

ları hər hansı yaşayış, xidməti və ya istehsalat binasında, digər yerdə, yaxud hər hansı şəxsdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və ya sənədlərin olmasını güman etməyə kifayət qədər əsas verdikdə müstəntiq axtarış apara bilər.

Xüsusi ittiham qaydasında işlərin xüsusiyyətini əsas götürməklə qanunverici məhz belə şikayətlər üzrə işlərə baxılması zamanı bu cür axtarış və götürmənin tətbiqinin mümkünlüyü halını nəzərə almamışdır. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və bu xarakterli şikayətlərə baxılması zamanı meydana çıxan işin bu və ya digər hallarını nəzərə alaraq hesab edirik ki, xüsusi ittiham qaydasında şikayətlərə baxılması zamanı şikayətdə göstərilən cinayətin törədilməsi hallarının təsdiqi üçün sübutların əldə edilməsi məqsədilə məhkəmənin qərarı əsasında icra məmurları tərəfindən axtarış aparıla bilər. Azərbaycan Respublikası CPM-in 88.4.4, 323.1.1 və 323.5.1-ci maddələri belə axtarışın və götürmənin keçirilməsinə dair qərar qəbul edilməsini mümkün hesab edir.

Qüvvədə olan qanunvericiliyə əsasən cinayət təqibinin xüsusi ittiham qaydasında həyata keçirilməsi üçün Azərbaycan Respublikası CPM-in 293.3.1-293.3.7-ci maddələrinin tələb etdiyi məzmunda şikayət verilməlidir. Şikayət yazılı formada verilməklə həmin şikayətdə onu vermiş şəxsin özü haqqında (soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış yeri, məşğuliyyət növü), törədilmiş cinayət barədə, həmin əməlin kim tərəfindən törədilməsi və əməlin məhz həmin şəxs tərəfindən törədilməsini təsdiq edən məlumatlar, şikayətdə göstərilən cinayətin törədilmə hallarının hansı şahid ifadələri ilə, hansı sənədlərlə, habelə hansı digər sübutlarla təsdiq edilməsinə dair informasiyalar, cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında xahiş və şikayətin verildiyi tarix və imza olmalıdır.

Xüsusi ittiham qaydasında şikayət materiallarında məhkəmə baxışının qeyri-mümkünlüyünə səbəb ola biləcək hallar yoxdursa və qanunla nəzərdə tutulmuş prosessual forma və qaydalara əməl edilmişdirsə, məhkəmə xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul olunması barədə qərar qəbul etməklə 7 gün müddətində şikayətə baxılmasını təmin etməlidir.

Məhkəmə hər bir halda xüsusi ittiham qaydasında şikayəti öz icraatına qəbul etməsi və məhkəmə baxışını təyin etməsi barədə qərar qəbul edənədək zərər çəkmiş şəxsə barışmaq hüququnun olmasını izah etməlidir.

Cinayət təqibinin digər iki növündən fərqli olaraq xüsusi ittiham qaydasında şikayətlərə dair işlərdə xüsusi ittihamçının (onun qanuni nümayəndəsi və ya nümayəndəsinin) üzrlü səbəblərin olmasını əvvəlcədən bildirmədən məhkəmənin hazırlıq iclasına təkrar gəlməməsi məhkəmə tərəfindən xüsusi

ittiham qaydasında şikayətin öz icraatına qəbulundan imtina olunması haqqında qərarın qəbul edilməsinə səbəb olur (CPM-in 299.8-ci maddəsi).

Xüsusi ittiham qaydasında şikayətə baxılması ilə əlaqədar məhkəmə istintaqı xüsusi ittihamçı və ya onun nümayəndəsi tərəfindən şikayətin elan edilməsi ilə başlanır (CPM-in 324.2.2-ci maddəsi). Prosesdə təqsirləndirilən şəxsə istinad olunan əməlin onun tərəfindən törədilməsini sübut etmək və müdafiə tərəfinin həmin ittihama qarşı irəli sürdüyü dəlilləri əsaslı faktlarla təkzib etmək vəzifəsi yalnız xüsusi ittihamçı və ya onun nümayəndəsinin üzərinə qoyulmuşdur.

Xüsusi ittiham qaydasında şikayətə baxılması ilə əlaqədar məhkəmə istintaqının gedişində sübutların tədqiq edilməsi ilə bağlı qanunvericiliyin mövqeyi müəyyən mübahisələr yaradır. Belə ki, Azərbaycan Respublikası CPM-in 337.1-ci maddəsində göstərilir ki, dövlət ittihamçısı ittihamın təsdiqi üçün tədqiq edilmiş sübutların kifayət olmasını hesab etdikdə, məhkəmə istintaqında ittiham tərəfdən təqdim olunmuş sübutların tədqiqinin baxılmış sübutlarla məhdudlaşdırılması barədə konkret vəsatət qaldıra bilər. Məhkəmə cinayət prosesi tərəflərinin hər birini dinləyərək həmin vəsatəti təmin və ya rədd etmək hüququna malikdir. Qeyd edilən hüququn dövlət ittihamçısı üçün nəzərdə tutulması başa düşüləndir.

Müdafiə tərəfi də cinayət işini başlamış şəxs tərəfindən cinayət işinin materiallarına əlavə edilmiş və ya təqsirləndirilən şəxsin, onun müdafiəçisinin, qanuni nümayəndəsinin, habelə mülki cavabdehin və ya onun nümayəndəsinin vəsatəti əsasında məhkəməyə təqdim edilmiş, lakin məhkəmədə hələ ki, baxılmamış sübutların tədqiq edilməsindən imtina etmək hüququna malikdir. Belə imtina hər bir halda məhkəmə tərəfindən qəbul olunmalıdır (CPM-in 337.2-ci maddəsi).

Sübutların tədqiqatının məhdudlaşdırılması ilə əlaqədar cinayət prosesində müdafiə tərəfi və dövlət ittihamçısı üçün müəyyən səlahiyyətlər nəzərdə tutulsa da, ittiham tərəfinə daxil olan digər proses iştirakçıları-zərər çəkmiş şəxs və mülki iddiaçı üçün belə imkan müəyyən edilməmişdir. Halbuki həmin şəxslərin də cinayət prosesində xüsusi maraqları vardır. Ən təəccüblü hal isə odur ki, Azərbaycan Respublikası CPM-də xüsusi ittiham qaydasında şikayətə baxılması ilə əlaqədar xüsusi ittihamçının özünün təqdim etdiyi sübutların tədqiqinin məhdudlaşdırılması barədə məhkəmədə vəsatət qaldırmaq hüququ nəzərdə tutulmamışdır. Hesab edirik ki, Azərbaycan Respublikası CPM-in 337.1-ci maddəsinə sübutların tədqiqinin məhdudlaşdırılması barədə vəsatət vermək hüququna malik olan subyektlərin sırasına xüsusi ittihamçının da adı əlavə olunmalıdır.

Azərbaycan Respublikası CPM-in 315.4-cü maddəsində deyilir ki, xüsusi ittihamçının xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmə baxışı zamanı üzrlü səbəblərə görə məhkəmə iclasına gəlməsi mümkün olmadıqda, o, məhkəmə iclası başlananadək bu barədə məhkəməyə məlumat verməlidir. Məhkəmə xüsusi ittihamçının məhkəmə iclasına gəlməməsi səbəbini üzrlü hesab etdikdə cinayət işinin məhkəmə baxışı təxirə salınır və məhkəmə iclası başqa vaxta keçirilir.

Həmin maddənin beşinci hissəsinə əsasən isə xüsusi ittihamçı xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmə baxışı zamanı üzrsüz səbəblərə görə təkrarən məhkəmə iclasına gəlmədikdə, məhkəmənin qərarı ilə cinayət işinin məhkəmədə xüsusi ittiham qaydasında şikayət üzrə icraatına xitam verilir.

Xüsusi ittihamçının qanunvericiliklə ittiham tərəfinə aid edilməsi və irəli sürdüyü ittihamı müdafiə etməsi və ya ondan imtinanın məhz özünün iradəsindən asılı olması xüsusi xarakterli şikayətlər üzrə başlanmış icraatın xüsusiyyətlərini şərtləndirən hallardan irəli gəlir.

Aşağıdakı hallarda məhkəmə xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmənin hazırlıq iclasının nəticələri əsasında məhkəmə baxışının keçirilməsindən imtina edir:

- şikayət həmin məhkəməyə aid olmadıqda məhkəmə şikayətin məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qərar qəbul edir (AR CPM-in 302.1.1, 302.2.1-ci maddələr);
- şikayət xüsusi ittiham qaydasında cinayət təqibinə hüququ olmayan şəxs tərəfindən verildikdə (AR CPM-in 302.1.2-ci maddəsi);
- şikayətin məzmunu AR CPM-in 293.3.1-293.3.7-ci maddələrində nəzərdə tutulmuş tələblərə uyğun olmadıqda (AR CPM-in 302.1.3-cü maddəsi);
- cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdikdə (AR CPM-in 302.1.4-cü maddəsi);
- barəsində xüsusi ittiham qaydasında şikayət verilmiş əməl ictimai və ya ictimai-xüsusi qaydada təqib edilməli olduqda (AR CPM-in 302.1.5-ci maddəsi) ;
- cinayət hadisəsi və ya barəsində xüsusi ittiham qaydasında şikayət verilmiş əməldə cinayət əlamətləri olmadıqda (AR CPM-in 302.1.6-cı maddəsi);
- şikayət əsassız olduqda və şikayət vermiş şəxsin dəlillərini təsdiq edən sübutları əks etdirmədikdə (AR CPM-in 302.1.7-ci maddəsi);

- şikayət vermiş şəxs şikayətindən imtina etdikdə və təqsirləndirilən şəxslə barışdıqda və ya məhkəmənin hazırlıq iclasına üzrlü səbəb olmadan təkrarən gəlmədikdə (AR CPM-in 302.1.8-ci maddəsi).

AR CPM-in 302.2.2-ci maddəsinə əsasən məhkəmə bu Məcəllənin 302.1.5-ci maddəsində nəzərdə tutulmuş halda xüsusi ittiham qaydasında verilmiş şikayətin baxılması üçün istintaq aidiyyəti üzrə göndərilməsi, CPM-in 302.2.3-cü maddəsinə əsasən isə Məcəllənin 302.1.2-302.1.4, 302.1.6-302.1.8-ci maddələrində nəzərdə tutulmuş hallarda xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina edilməsi barədə qərar çıxarır.

Yuxarıda bəhs olunan məsələ ilə bağlı bir neçə məqama münasibət bildirmək istərdik. *Birincisi,* hesab edirik ki, AR CPM-in 302.1.6-cı maddəsində "cinayət əlamətləri" ifadəsinin "cinayət tərkibinin əlamətləri" ifadəsi ilə əvəz edilməsi daha məqsədəuyğun olardı. Çünki "cinayətin əlamətləri" ilə "cinayət tərkibinin əlamətləri" fərqli hüquqi terminlər olub ayrı-ayrı məsələləri əks etdirir. Sözü gedən maddə isə "cinayətin əlamətləri"ni deyil, "cinayət tərkibinin əlamətləri"ni nəzərdə tutur.

*İkincisi,* AR CPM-in 302.1.7-ci maddəsinin məzmunundan görünür ki, məhkəmə hazırlıq iclasında şikayətin əsaslı və ya əsassız olması məsələsini həll etməlidir. Lakin Azərbaycan Respublikası CPM-in 299.3 və 299.4-cü maddələrindən aydın olur ki, hazırlıq iclasında məhkəmə yalnız irəli sürülmüş ittihamın əsaslılığını deyil, eyni zamanda cinayət prosessual qanunvericiliyin tələblərinə əməl olunub-olunmamasını, vəsatət və etirazların təmin edilməsi və ya onların təmin edilməsinin rədd edilməsini, habelə sübutların siyahısı məsələsini, məhkəmə baxışından sübut kimi yolverilməz materialların xaric edilməsini, eləcə də şikayətin sonrakı hərəkətləri barədə məsələləri də həll edir.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Respublikası CPM-in 302.1.7-ci maddəsində şikayət vermiş şəxsin dəlillərini təsdiq edən sübutların əks etdirilməməsi məhkəmə baxışının keçirilməsindən imtina üçün əsas kimi müəyyən olunmuşdur. Azərbaycan Respublikası CPM-in 302.1.3-cü maddəsinə əsasən şikayətin məzmunu ilkin baxış zamanı bu Məcəllənin 293.3.1-293.3.7-ci maddələrinin tələblərinə uyğun olmadığı halda, məhkəmə baxışının keçirilməsindən imtina edilməsi nəzərdə tutulub. Azərbaycan Respublikası CPM-in 293.3.4-cü maddəsində isə şikayətdə göstərilən cinayətin törədilmə hallarının hansı şahid ifadələri ilə və konkret olaraq hansı şəxslərin ifadələri ilə (şəxsin soyadı, adı, atasının adı və yaşayış yeri), hansı sənədlərlə, habelə hansı digər sübutlarla təsdiq edildiyi göstərilib. Belə olan halda fikrimizcə, CPM-in 302.1.7-ci maddəsinin çıxarılması düzgün olardı.

Bundan başqa, hesab edirik ki, CPM-in 302.1-ci maddəsində nəzərdə tutulan xüsusi ittiham qaydasında şikayətlər üzrə imtinaya əsas verən hallar siyahısına həmin məcəllənin 39-cu maddəsində qeyd olunan cinayət təqibini istisna edən aşağıdakı halların da əlavə olunmasına ehtiyac vardır:

- cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin baş verdiyi anda onu törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmadıqda (həmin şəxsə qarşı tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi zəruri olan hallar istisna edilməklə);
- şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətdikdən sonra öldükdə (ölən şəxsə bəraət verilməsi zəruri olan hallar istisna edilməklə);
- şəxs barəsində eyni ittiham üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya digər məhkəmənin cinayət təqibini qeyri-mümkün edən ləğv edilməmiş qərarı olduqda;
- amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda.

Qeyd olunan halların CPM-in 302.1-ci maddəsində nəzərdə tutulmaması həmin halların mövcudluğu şəraitində xüsusi ittiham qaydasında şikayətlər üzrə faktiki olaraq predmetsiz məhkəmə baxışının keçirilməsinə gətirib çıxarır. Qeyd edilənləri nəzərə alaraq, yuxarıda sadalanmış halları məhkəmənin hazırlıq iclasının nəticələri əsasında məhkəmə baxışının keçirilməsindən imtina etməyə əsas verən hallar kimi Azərbaycan Respublikası CPM-in 302.1-ci maddəsinə əlavə edilməsini zəruri hesab edirik.

Apellyasiya şikayətinin baxışına dair yekun məhkəmə qərarının çıxarılmasını müəyyən edən Azərbaycan Respublikası CPM-in 398.1.3-cü maddəsində apellyasiya instansiyası məhkəməsinin birinci instansiya məhkəməsinin hökmünün və ya qərarının ləğv edilməklə, cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi barədə qərar qəbul etmək səlahiyyətinin olması nəzərdə tutulmuşdur.

Məcəllənin 301.1-ci maddəsinə uyğun olaraq xüsusi ittiham qaydasında şikayətin materialında məhkəmə baxışının qeyri-mümkünlüyünə səbəb olan hallar olmadıqda və şikayətin prosessual formasına riayət edildikdə, məhkəmənin hazırlıq iclasında şikayət üzrə məhkəmə baxışının təyin edilməsi barədə qərar qəbul olunur və bu qərarda Məcəllənin 301.2.1-301.2.4, 301.2.6-301.2.12-ci maddələrində göstərilən müddəalar əks olunmalıdır. Yəni qanunun mənasından da göründüyü kimi məhkəmənin hazırlıq iclasının nəticələrinə dair müvafiq qərar qəbul edilərkən xüsusi ittiham qaydasında şikayət üzrə AR CPM-in 154.2-ci maddəsində nəzərdə tutulan prosessual məcburiyyət təd-

birlərinin tətbiqi nəzərdə tutulmur.

Dediklərimizi yekunlaşdırsaq belə nəticəyə gələ bilərik ki, cinayət prosessual qanunvericilikdə xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat spesifik xüsusiyyətlərə malikdir və cinayət təqibinin xüsusi ittiham növü zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) hüquq və azadlıqlarının təmin olunmasında mühüm prosessual əhəmiyyət daşıyır.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (1999-cu il iyulun 1-nə olan dəyişiklik və əlavələrlə). Bakı, "Qanun" nəşriyyatı, 1999.

2. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi (1999-cu il aprelin 1-nə kimi olan dəyişiklik və əlavələrlə). Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 1999.

3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (20 iyun 2013-cü il tarixədək edilmiş əlavə və dəyişikliklərlə). Bakı, "Digesta" nəşriyyatı, 2013.

4. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi (15 yanvar 2013-cü ilə qədər olan əlavə və dəyişikliklərlə). Bakı, "Hüquq ədəbiyyatı", 2013.

5. Mövsümov C. Azərbaycan SSR cinayət prosesi. Bakı, "Maarif" nəşriyyatı, 1980.

## Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2013-cü ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında

Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qərarları ilə hakimlərin müntəzəm olaraq tanış edilməsini Bülletenin bu sərlövhəsinin əsas məqsədlərindən biri kimi müəyyən etmişik. Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı qərarların digər hakimlərin nəzərinə çatdırılmasının zəruriliyi, xüsusilə intizam tənbehlərinə səbəb olan pozuntular barədə hakim korpusunun məlumatlandırılmasının vacibliyi hakimlərin statusuna aid beynəlxalq-hüquqi sənədlərdə də öz əksini tapmışdır. Hesab edirik ki, bu yolla həm hakimlərin özünüidarəsi sahəsində şəffaflıq prinsipi təmin olunur, həm də eyni pozuntuların digər hakimlər tərəfindən törədilməsi hallarının qarşısı alınmış olur. Bu məqsədlərdən çıxış edərək Bülletenin hazırkı sayında 2013-cü ilin birinci yarısında Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi bir sıra qərarlar barəsində ümumiləşdirilmiş məlumatları və buna dair müvafiq təhlili muxtar respublika hakimlərinin diqqətinə çatdırmaq istərdik.

2013-cü ilin birinci yarımilində Məhkəmə-Hüquq Şurası tərəfindən 7 hakimin intizam məsuliyyətinə cəlb olunması haqqında 5 qərar qəbul edilmişdir. Bu qərarlar Məhkəmə-Hüquq Şurasının 06 fevral və 14 iyun 2013-cü il tarixli iclaslarında qəbul olunmuşdur[3]. Həmin qərarlar əsasında barələrində intizam icraatı başlanılan hakimlərdən 2 nəfərin (Bakı şəhər Nizami Rayon Məhkəməsinin və Masallı Rayon Məhkəməsinin hakimlərinə) barəsində iş yerinin dəyişdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinə müraciət olunmuşdur.

Barəsində intizam icraatı başlanılmış 1 nəfərə (Bakı şəhər Nizami Rayon Məhkəməsinin hakimi) töhmət verilmiş, 1 nəfərə (Bakı şəhər Sabunçu Rayon məhkəməsinin hakimi) irad tutulmuş, 3 nəfər (Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimləri) barəsində isə intizam icraatına xitam verilmişdir.

[3] Bu sərlövhənin hazırlanması zamanı Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 06 fevral və 14 iyun 2013-cü il tarixli qərarlarına istinad olunmuşdur.

Bununla yanaşı, icraata xitam verilən intizam işində də hakimlər tərəfindən pozuntulara yol verilməsi müəyyən olunmuş, lakin Məhkəmə-Hüquq Şurası həmin nöqsanların xarakterini və digər diqqətəlayiq halları nəzərə alıb icraatın müzakirə ilə bitirilməsini məqsədəmüvafiq hesab etmişdir.

İntizam icraatının başlanılmasına bir halda Azərbaycan Respublikası Ali Məhkəməsinin, iki halda Bakı Apellyasiya Məhkəməsinin, bir halda isə Şirvan Apellyasiya Məhkəməsinin sədrlərinin müraciətləri əsas olmuşdur.

3 halda intizam icraatının başlanılmasına səbəb cinayət işlərinə və 1 halda mülki işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması olmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 06 fevral və 14 iyun 2013-cü il tarixli qərarlarından görünür ki, Bakı şəhər Nizami Rayon Məhkəməsinin hakimləri Z.M.Əliyevin, A.İ.İsmayılovun, Bakı şəhər Sabunçu Rayon Məhkəməsinin hakimi E.Kazımovun və Masallı Rayon Məhkəməsinin hakimi V.M.Nəsirovun barəsində intizam icraatlarına işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması əsas olmuşdur.

Cinayət və mülki mühakimə icraatında yol verilən intizam icraatına əsas olmuş konkret pozuntulara gəldikdə, qeyd olunmalıdır ki, həmin nöqsanlar həm maddi, həm də prosessual hüquq normalarının pozulması ilə bağlı olmuşdur.

Belə ki, Məhkəmə-Hüquq Şurasının 06 fevral 2013-cü il tarixli qərarından görünür ki, Masallı Rayon Məhkəməsi tərəfindən iddiaçı Nahid Məhərrəm oğlu Qasımovun maraqlı şəxs DƏDRX-nin Cəlilabad Ərazi İdarəsinə qarşı vəsiyyət olunan əmlakın üzərində mülkiyyət hüququnun tanınması tələbinə dair mülki işə baxılarkən və bununla əlaqədar əlavə qətnamə çıxarılarkən qanunvericiliyin tələbləri kobud surətdə pozulmuşdur.

Belə ki, hakim Vidadi Nəsirovun sədrliyi ilə çıxarılan 27 dekabr 2011-ci il tarixli qətnamə ilə ərizə təmin edilərək Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən 0.05 hektar həyətyanı torpaq sahəsində 1900-cü ildə tikilmiş 2 mərtəbəli, 4 otaqlı yaşayış evinin müsadirə olunmuş hər mərtəbədən bir otaq olmaqla alt-üst, ümumi sahəsi 69.10 kv.m, yaşayış sahəsi 48.00 kv.m olan iki otağın Masallı rayon Mənzil İstismar Sahəsinin balansından çıxarılması, 14 mart 2007-ci il tarixdə ölmüş Qasımova Fatma Mirəhəd qızından miras qalmış Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən, Masallı rayon Aqrar İslahat Komissiyasının 19 aprel 1999-cu il tarixli 027 nömrəli qərarına əsasən Torpağın mülkiyyətə verilməsinə dair JN-105A, kod 80501039 nömrəli şəhadətnamə ilə mülkiyyətinə verilmiş 0.05 hektar həyətyanı torpaq sahəsinə vəsiyyətnamə üzrə

vərəsəsi Qasımov Nahid Məhərrəm oğlu sahiblik etdiyi üçün, həmçinin də əmlakı idarə etməyə faktiki başladığını və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdiyi üçün həmin miras əmlak onun tərəfindən qəbul edilmiş sayılmış və həmin miras əmlaka onun mülkiyyət hüququ tanınmış, Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən 0.05 hektar həyətyanı torpaq sahəsində 1900-cü ildə tikilmiş 2 mərtəbəli, 4 otaqlı yaşayış evinə N.Qasımovun mülkiyyət hüququnun tanınması qət edilmişdir. Bundan sonra Masallı Rayon Məhkəməsinin 25 yanvar 2012-ci il tarixli əlavə qətnaməsi ilə baza elektron xəritəsində 1087-BB kimi göstərilmiş 0.04 hektar torpaq sahəsində 1900-cü ildə tikilmiş 2 mərtəbəli, 4 otaqlı yaşayış evinin müsadirə olunmuş hər mərtəbəsindən bir otaq olmaqla alt-üst, ümumi sahəsi 69.10 kv.m, yaşayış sahəsi 48.00 kv.m olan iki otağın Masallı rayon Mənzil İstismar Sahəsinin balansından çıxarılması və müsadirə olunmuş həmin əmlakın geri qaytarılması, Nahid Qasımovun Torpağın mülkiyyətə verilməsinə dair JN-105A nömrəli şəhadətnamə və baza elektron xəritəsində 1087-BB kimi göstərilmiş 0.09 hektar torpaq sahələrinə və bu 0.09 hektar torpaq sahəsində tikilmiş fərdi evlərə və tikililərə mülkiyyət hüququnun tanınması qət edilmişdir.

Maraqlı şəxs Mahmudova Mənsurə Hüseyn qızı qeyd edilən qətnamədən və əlavə qətnamədən apellyasiya şikayəti vermiş, Masallı Rayon Məhkəməsinin 19 mart 2012-ci il tarixli qərardadı ilə M.Mahmudovanın apellyasiya şikayəti və ona əlavə edilmiş sənədlər geri qaytarılmışdır. M.Mahmudova şikayət verərək Masallı Rayon Məhkəməsinin 19 mart 2012-ci il tarixli qərardadının ləğv edilməsini xahiş etmişdir.

Şirvan Apellyasiya Məhkəməsinin mülki kollegiyasının 17 may 2012-ci il tarixli qərardadı ilə maraqlı şəxs M.Mahmudova tərəfindən verilmiş şikayət təmin edilərək iş üzrə Masallı Rayon Məhkəməsinin 19 mart 2012-ci il tarixli qərardadı ləğv edilmiş, Masallı Rayon Məhkəməsinin 27 dekabr 2011-ci il tarixli qətnaməsindən verilmiş apellyasiya şikayəti icraata qəbul edilmişdir.

İşə apellyasiya qaydasında baxılarkən müəyyən edilmişdir ki, birinci instansiya məhkəməsi tərəfindən maddi hüquq normalarının tələblərinin kobud şəkildə pozulması hallarına yol verilməklə əsassız qətnamə qəbul edilmişdir. Belə ki, məhkəmə öz qətnaməsində göstərmişdir ki, Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən 2 mərtəbəli, ümumi sahəsi 69.10 kv.m, yaşayış sahəsi 48.0 kv.m olan ev 1900-cü ildə tikilmişdir. Həmin evin yarısı, yəni hər mərtəbədən bir otaq olmaqla alt-üst iki otaq vaxtı ilə müsadirə olunmuşdur. Lakin, həmin evin müsadirə olunması ilə bağlı olan sənədlər iddiaçının əlində yoxdur. İddiaçı həmin sənədlərin əldə edilməsi üçün arxiv idarəsinə müraciət etmişdir. Masallı rayon

İcra Hakimiyyəti başçısı aparatının Dövlət Arxivi 12 noyabr 2008-ci il tarixli 703 nömrəli arayışı ilə iddiaçıya cavab vermişdir ki, Masallı rayon Dövlət Arxivində 1935-1937-ci illərə aid evlər müsadirə olunanlar və ya sürgünə göndərilənlər barədə məlumat yoxdur. Lakin işdə toplanmış digər sübutlarla təsdiq olunur ki, Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən 2 mərtəbəli, 4 otaqdan ibarət evin hər mərtəbəsindən bir otaq olmaqla alt-üst iki otağı vaxtı ilə müsadirə olunmuş və Masallı rayon Kommunal Müəssisələr Kombinatının balansına verilmişdir. Azərbaycan SSR Mənzil Kommunal Təsərrüfatı Nazirliyinin 22 dekabr 1986-cı il tarixli 604 nömrəli əmrinə əsasən Masallı şəhərində Mənzil İstismar Sahəsi yaradılmışdır. Həmin ev balans dəyərini tamamilə itirmiş, uzun müddət istismarda olduğundan tam yararsız hala düşmüş və bir daha istifadəyə yararsızdır. Bu evə bir neçə dəfə baxış keçirilmiş, akt tərtib edilmişdir. Həmin evin alt-üst iki otağı müsadirə olunmuş olsa da, Masallı rayon Mənzil İstismar Sahəsinin balansında olmuş olsa da, həmin mənzildə uzun müddət, 1997-ci ildən heç kim yaşamamış, miras qoyan tərəfindən, onun ölümündən sonra isə onun vərəsələri tərəfindən nəzarətdə saxlanılmışdır.

İşdən görünür ki, işə baxan məhkəmə iddianın mahiyyətini aydınlaşdırmamış, tələbin nədən ibarət olmasını müəyyən etmədən və iddiaçının mübahisəli mənzilə dair heç bir hüququ olmadığı halda həmin mənzildə qanuni əsaslarla yaşayan maraqlı şəxs Mənsurə Mahmudovanı məhkəmə iclasına cəlb etmədən sonuncunun maraqlarına toxunan və qanunla qorunan mənzil hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnən qətnamə qəbul etmişdir.

Xüsusi qərardadda vurğulandığı kimi birinci instansiya məhkəməsi qətnamədə göstərmişdir ki, mübahisəli kommunal ev Masallı rayon XDS İK-nin 24 dekabr 1986-cı il tarixli 22 nömrəli qərarı ilə 1900-cü ildə tikilmişdir. Məhkəmə nəzərə almamışdır ki, 1900-cü ildə tikilmiş kommunal mənzilə dair 1986-cı ildə qərar verilə bilməzdi. İşin qeyd olunan hallarından görünür ki, iş tam, hərtərəfli və obyektiv araşdırılmamışdır.

Birinci instansiya məhkəməsi iddianı təmin edərkən iddiaçının Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən 0.05 hektar həyətyanı torpaq sahəsində 1900-cü ildə tikilmiş 2 mərtəbəli, 4 otaqlı yaşayış evinin müsadirə olunmuş hər mərtəbədən bir otaq olmaqla alt-üst, ümumi sahəsi 69.10 kv.m, yaşayış sahəsi 48.00 kv.m olan iki otağına, ümumiyyətlə, mübahisəli mənzilə iddiaçının hansı hüquqlarının olduğunu müəyyən etmədən və iddiaçının belə bir hüququ olub-olmadığını nəzərə almadan iddianın təmin olunması barədə qətnamə qəbul etmişdir. Həmçinin, qətnamə ilə maraqlı şəxs M.Mahmudovanın yaşadığı mənzilin heç bir qanuni əsaslar olmadan

Masallı rayon Mənzil İstismar Sahəsinin balansından çıxarılması, 14 mart 2007-ci il tarixdə ölmüş Qasımova Fatma Mirəhəd qızından miras qalmış Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən, Masallı rayon Aqrar İslahat Komissiyasının 19 aprel 1999-cu il tarixli 027 nömrəli qərarına əsasən Torpağın mülkiyyətə verilməsinə dair JN-105A, kod 80501039 nömrəli şəhadətnamə ilə mülkiyyətinə verilmiş 0.05 hektar həyətyanı torpaq sahəsinə vəsiyyətnamə üzrə vərəsə iddiaçı Qasımov Nahid Məhərrəm oğlunun sahiblik etdiyini, həmçinin əmlakı idarə etməyə faktiki başladığını və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdiyini nəzərə alaraq həmin miras əmlak iddiaçı tərəfindən qəbul edilmiş sayılmış və sözügedən miras əmlaka iddiaçının mülkiyyət hüququ tanınmış, Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən 0.05 hektar həyətyanı torpaq sahəsində 1900-cü ildə tikilmiş 2 mərtəbəli, 4 otaqlı yaşayış evinə iddiaçı N.Qasımovun mülkiyyət hüququnun tanınması qət edilmişdir.

İş materialları ilə müəyyən edilmişdir ki, M.Mahmudova Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən 2 mərtəbəli, ümumi sahəsi 69.10 kv.m, yaşayış sahəsi 48.00 kv.m olan mənzildə yaşayır və həmin mənzildə yaşamasına dair mənzil kirayə müqaviləsi vardır. M.Mahmudovanın iş materiallarına əlavə edilmiş şəxsiyyət vəsiqəsinin surətindən görünür ki, yaşayış yeri Masallı şəhəri N.Nərimanov küçəsi, 16 saylı evdir.

Göründüyü kimi qətnamə qəbul edən birinci instansiya məhkəməsi maraqlı şəxs M.Mahmudovanın mənzil hüquqlarının pozulması ilə nəticələnən qətnamə qəbul etməklə onun konstitusiyada təsbit edilmiş mənzil hüquqlarını pozmuşdur.

Məhkəmə kollegiyasının iclasında müəyyən edilmişdir ki, birinci instansiya məhkəməsi tərəfindən iddia ərizəsinin icraata qəbul edilməsi ilə bağlı Mülki Prosessual Məcəllənin bir sıra maddələrinin tələbləri pozulmuş, məhkəmə mübahisə üzrə işə Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən 0.05 hektar həyətyanı torpaq sahəsində 1900-cü ildə tikilmiş 2 mərtəbəli, 4 otaqlı yaşayış evinin müsadirə olunmuş hər mərtəbədən bir otaq olmaqla alt-üst, ümumi sahəsi 69.10 kv.m, yaşayış sahəsi 48.00 kv.m olan iki otağın Masallı rayon Mənzil İstismar Sahəsinin balansından çıxarılmasını qət etməklə iddia icraatı qaydasında, həm də 14 mart 2007-ci il tarixdə ölmüş F.Qasımovadan miras qalmış Masallı şəhəri, N.Nərimanov küçəsi 16 nömrəli ünvanda yerləşən, 0.05 hektar həyətyanı torpaq sahəsinə vəsiyyətnamə üzrə vərəsə N.Qasımov sahiblik etdiyi üçün, həmçinin əmlakı idarə etməyə faktiki başladığı və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdiyi üçün həmin miras əmlak onun tərəfindən qəbul edilmiş

sayılmış və həmin miras əmlaka onun mülkiyyət hüququ tanınmış, mübahisəli yaşayış evinə N.Qasımovun mülkiyyət hüququnun tanınmasını qət etməklə xüsusi icraat qaydasında baxmışdır.

Birinci instansiya məhkəməsinin mübahisəli məsələyə MPM-in 305.1-ci, 307.1-ci, 307.2.6-cı maddələrini tətbiq etməsi məsələyə xüsusi icraat qaydasında baxılmasını təsdiq edir.

Birinci instansiya məhkəməsi tərəfindən prosessual hüquq normalarının tələbləri iş üzrə 25 yanvar 2012-ci il tarixli əlavə qətnamənin qəbul edilməsi zamanı da pozulmuşdur. İşdən göründüyü kimi 27 dekabr 2011-ci il tarixli qətnamədə birinci instansiya məhkəməsi mənzil istismar sahəsinin balansından çıxararaq iddiaçıya mülkiyyət hüququnu tanıdığı tikilinin ona məxsus torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamədə yerləşməsini göstərmişdir. Bu hal əlavə qətnamə ilə əsas qətnamənin bir-biri ilə ziddiyyət təşkil etdiyini göstərir. Həmçinin məhkəmə əlavə qətnamədə müsadirə olunmuş əmlakın geri qaytarılmasını göstərsə də, həmin əmlakın nə vaxt, hansı məhkəmə qərarı əsasında müsadirə edilməsini və bu zaman hansı sübutlara istinad etməsini göstərməmişdir.

İşdən görünür ki, hakim əlavə qətnamədə MPM-in 229.1.1-ci maddəsinə istinad etmişdir. MPM-in 229.1.1-ci maddəsinin məzmununa görə isə işdə iştirak edən şəxslər tələblərdən hər hansı biri üzrə sübutlar təqdim etmiş və izahatlar vermişlərsə, bu tələblər barədə qətnamə çıxarılmamışdırsa, əlavə qətnamə çıxarıla bilər. Birinci instansiya məhkəməsinin hakimi əlavə qətnamə çıxarması üçün əsas olmuş tərəflərin hansı sübutlar təqdim etməsini, hansı məzmunlu izahat verməsini qətnamədə göstərməmişdir. İşdə də bu barədə heç bir sübut yoxdur.

Xüsusi qərardadda habelə qeyd olunur ki, birinci instansiya məhkəməsi əlavə qətnamə ilə baza elektron xəritəsində 1087-BB kimi göstərilmiş 0.04 hektar torpaq sahəsində 1900-cü ildə tikilmiş 2 mərtəbəli, 4 otaqlı yaşayış evinin müsadirə olunmuş hər mərtəbəsindən bir otaq olmaqla alt-üst, ümumi sahəsi 69.10 kv.m, yaşayış sahəsi 48.00 kv.m olan iki otağın Masallı rayon Mənzil İstismar Sahəsinin balansından çıxarılması və müsadirə olunmuş həmin əmlakın geri qaytarılmasını, Qasımov Nahid Məhərrəm oğlunun Torpağın mülkiyyətə verilməsinə dair JN-105A nömrəli şəhadətnamə və baza elektron xəritəsində 1087-BB kimi göstərilmiş 0.09 hektar torpaq sahələrinə və bu 0.09 hektar torpaq sahəsində tikilmiş fərdi evlərə və tikililərə mülkiyyət hüququnun tanınmasını qət etməklə maddi və prosessual hüquq normalarının tələblərini aşkar şəkildə pozmuşdur.

Birinci instansiya məhkəməsi tərəfindən mübahisəli kommunal evin Masallı rayon AİK-nın 19 aprel 1999-cu il tarixli 027 saylı qərarı ilə Qasımova Fatma Mirəhəd qızının mülkiyyətinə verilmiş 0.05 ha torpaq sahəsində yerləşməsi barədə heç bir sübut olmadan, bu barədə heç bir araşdırma aparmadan baza elektron xəritəsində 1087-BB kimi göstərilmiş 0.09 hektar torpaq sahələrinə və bu 0.09 hektar torpaq sahəsində tikilmiş fərdi evlərə və tikililərə mülkiyyət hüququnun tanınmasını qət etməklə maddi və prosessual hüquq normalarının tələblərini kobud şəkildə pozmuşdur. Bununla məhkəmə iddia tələblərindən kənara çıxaraq MPM-in 218.3-cü maddəsinin tələblərini pozmuşdur.

İş materialları ilə müəyyən edilmişdir ki, iddiaçı tələbinin əsası kimi Torpağın mülkiyyətə verilməsinə dair JN-105A kod 80501039 saylı şəhadətnaməyə istinad etdiyi üçün işə baxan hakim həmin şəhadətnamədə göstərilən 0.05 hektar torpaq sahəsinin Masallı şəhəri N.Nərimanov küçəsi 16 saylı kommunal evin altında olması qənaətinə gəlmişdir. İşdən də göründüyü kimi, qətnamədə bu barədə heç bir qeydiyyat yoxdur. JN-105A kod 80501039 saylı şəhadətnamədə Masallı rayon AİK-nın 19 aprel 1999-cu il tarixli 027 saylı qərarı ilə Qasımova Fatma Mirəhəd qızının mülkiyyətinə 0.05 ha torpaq sahəsinin verilməsi göstərilmiş, şəhadətnamədə göstərilən torpaq sahəsinin məhz kommunal evin altında olan torpağa aid olması barədə iddiaçı heç bir sübut təqdim etməmişdir.

İş materiallarından görünür ki, birinci instansiya məhkəməsi iddiaçının 14 mart 2007-ci ildə ölmüş nənəsi Fatma Qasımovadan miras qalmış əmlakları konkret olaraq nə vaxt qəbul etməsini, bunun nədə ifadə olunmasını, hansı sübutlarla təsdiq olunmasını, mülki qanunvericilikdə nəzərdə tutulmuş 6 aylıq müddətin ötürülüb-ötürülməməsini, kommunal evin mərhum Fatma Qasımovanın yaşamış olduğu hissəsinin qətnamə çıxarılan dövrdə mövcud olub-olmamasını araşdırmamışdır.

İş materiallarından aydın olur ki, iddiaçı Masallı şəhəri N.Nərimanov küçəsi 16 ünvanında yerləşən 2 mərtəbəli kommunal evin, hər mərtəbədə bir otaq olmaqla 2 otağının Masallı rayon MİS-in balansından çıxarılmaqla həmin otaqlara mülkiyyət hüququnun tanınmasını xahiş etmişdir. Birinci instansiya məhkəməsinin qətnaməsinin nəticə hissəsində isə 2 mərtəbəli 4 otaqlı evə bütünlüklə mülkiyyət hüququ tanınmışdır. İş materiallarından göründüyü kimi iddiaçı kommunal evin yalnız nənəsi yaşadığı hissəsinə dair hüquqlarının tanınmasını tələb etmiş, məhkəmə isə hətta kommunal evin Mahmudova Mənsurənin və nəvəsinin yaşadığı hissəsinə iddiaçının hüquq-

larını tanımaqla iddia tələbindən kənara çıxaraq prosessual hüquq normasının tələblərini pozmaqla düzgün olmayan qətnamə qəbul etmişdir.

Məhkəmə kollegiyası bu halı MPM-in 385.1.1 və 387.1-ci maddəsinə əsasən birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi üçün əsas hesab etmişdır.

Bununla da birinci instansiya məhkəməsi tərəfindən maraqlı şəxsə münasibətdə İnsan Hüquqları Haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinin tələbləri pozulmuşdur. Birinci instansiya məhkəməsi tərəfindən iddiaçının dəlilləri araşdırılmadan qətnamə qəbul edilməklə, maraqlı şəxs Mənsurə Mahmudova mübahisəli mənzildə yaşadığı halda, qətnamə maraqlarına toxunmasına baxmayaraq, prosesə cəlb edilməyərək yaşadığı mənzildən qanunsuz məhrum edilməsi ilə nəticələnən qətnamə qəbul edilməklə işin ədalətli araşdırılması hüququ pozulmuşdur.

İş materialları ilə müəyyən edilmişdir ki, maraqlı şəxs Mənsurə Mahmudova kommunal evin 2 otağında uzun illərdir ki, nəvəsi İlkin Mahmudov ilə birlikdə yaşayır. Ona görə də kommunal evin Masallı rayon Mənzil İstismar Sahəsinin balansından çıxarılaraq iddiaçıya verilməsi həmin evdə yaşayan şəxs kimi qətnamənin M.Mahmudovanın hüquqlarına toxunduğunu göstərir. Birinci instansiya məhkəməsi tərəfindən qəbul edilmiş qətnamə ilə hüquqlarına toxunmasına baxmayaraq, maraqlı şəxsi prosesə cəlb etməməklə işin tam və hərtərəfli araşdırılması barədə mülki prosessual qanunvericiliyin tələbləri pozulmuşdur.

AR MPM-in 387.2-ci maddəsinə əsasən şikayətin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin qətnaməsi aşağıdakı hallarda ləğv edilməlidir: 387.2.2. işə, işdə iştirak edən şəxslərdən məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilməmiş hər hansı birinin iştirakı olmadan məhkəmə tərəfindən baxılmışdırsa; 387.2.4. məhkəmə işdə iştirak etməyə cəlb olunmamış şəxslərin hüquqlarının pozulması ilə nəticələnmiş onların hüquq və vəzifələrinə dair məsələni həll etmişsə.

Həmin Məcəllənin 387.3-cü maddəsinə əsasən bu Məcəllənin 387.2.1-387.2.7-ci maddələrində göstərilmiş halların mövcudluğu birinci instansiya məhkəməsi tərəfindən prosessual normaların kobud pozulması kimi qiymətləndirilməlidir. Mülki Prosessual qanunvericiliyin tələblərinə görə işdə iştirak etməyə cəlb edilməyən şəxslərin hüquq və vəzifələrinin həll edilməsi qadağan olunmuşdur. Belə halda məhkəmənin çəkişmə prinsipi pozulduğu üçün həmin qətnamə qanuni sayıla bilməz.

İddia ərizəsinin məzmunundan və iş materiallarından görünür ki, iş üzrə DƏDRX-nin Cəlilabad Ərazi İdarəsi maraqlı şəxs kimi göstərilməklə bara-

bər MPM-in 53-cü maddəsinə əsasən iddiaçının ərizəsində Masallı rayon MİS-in cavabdeh qismində işə cəlb edilib nümayəndəsinin dindirilməsi xahiş edilmişdir.

İş materiallarında DƏDRX-nin Cəlilabad Ərazi İdarəsinə ünvanlanmış məhkəmə iclaslarının yeri və vaxtı barədə məhkəmə bildirişləri olmasına baxmayaraq, Cəlilabad Ərazi İdarəsinin məhkəmə iclaslarının yeri və vaxtı barədə lazımi qaydada məlumatlandırılması barədə iş materiallarında rəsmi sənədlər aşkar olunmamışdır. Həmçinin iş üzrə qəbul edilmiş qətnamənin DƏDRX-nin Cəlilabad Ərazi İdarəsinə rəsmi qaydada çatdırılması barədə iş materiallarında sənəd aşkar edilməmişdir.

İşin həmin halı ilə bağlı məhkəmə kollegiyasının sorğusuna Cəlilabad Ərazi İdarəsi tərəfindən verilmiş 25 iyul 2012-ci il tarixli məktubda bildirilir ki, Cəlilabad Ərazi İdarəsi tərəfindən Masallı Rayon Məhkəməsində 27 dekabr 2011-ci il tarixdə nümayəndə iştirak etməmiş, Masallı Rayon Məhkəməsinin qətnamələri Ərazi İdarəsinə daxil olmamışdır.

İş materiallarından bəlli olur ki, birinci instansiya məhkəməsi iddianı təmin edərkən mübahisəli kommunal evin hüquqi statusunu düzgün müəyyən etməmiş, həmin kommunal evin kimin mülkiyyətində olduğunu aydınlaşdırmamış, kommunal evə hüququn dövlət qeydiyyatına alınmasını, iş üzrə gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halları araşdırmamış, gəldiyi nəticə işin hallarına uyğun olmamışdır.

Birinci instansiya məhkəməsinin 27 dekabr 2011-ci il tarixli məhkəmə iclas protokolunun məzmunundan və 27 dekabr 2011-ci il tarixli qətnamənin məzmunundan görünür ki, cavabdeh Masallı rayon MİS-in nümayəndəsi etibarnaməsiz məhkəmə iclasında cavabdehin nümayəndəsi kimi iştirak etmiş, bununla da məhkəmə MPM-in 73.1-ci maddəsinin də tələblərini pozmuşdur.

AR MPM-in 387.3-cü maddəsinə əsasən bu Məcəllənin 387.2.1-387.2.7-ci maddələrində göstərilmiş halların mövcudluğu birinci instansiya məhkəməsi tərəfindən prosessual normaların kobud pozulması kimi qiymətləndirilməlidir.

Məhkəmə kollegiyası yuxarıda qeyd olunanlara məcmu halında qiymət verərək hesab etmişdir ki, birinci instansiya məhkəməsində işə baxılarkən məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaratmamış, çəkişmə prinsipinə əməl etməməklə işin məhkəmə iclasında məhkəmə araşdırmaları aparılmasına, mahiyyəti üzrə işə baxılıb qətnamə qəbul edilməsinə yönələn bütün lazımi hərəkətləri etməmiş, iş materiallarında olan sübutlara mülki prosessual qanunvericiliyin tələblərinə uyğun qiymət verməmiş və nəticədə qəbul edilmiş qətnamədə göstərilən

nəticələr işin hallarına uyğun olmamış, qətnamə qəbul olunarkən işə baxan hakim tərəfindən işdə iştirak etməyə cəlb olunmamış şəxslərin hüquqlarının pozulması ilə nəticələnmiş məsələni həll etməklə prosessual normaların kobud pozuntusuna yol verilmişdir.

Məhkəmə-Hüquq Şurasının Bakı şəhəri, Nizami Rayon Məhkəməsinin hakimi Z.M.Əliyevin barəsində çıxardığı 06 fevral 2013-cü il tarixli qərarından görünür ki, hakim Z.M.Əliyev tərəfindən məhkum V.Abbasovun azadlıqdan məhrumetmə cəzasından şərti olaraq vaxtından əvvəl azad edilməsinə dair ərizəsinə baxarkən kobud qanun pozuntularına yol verilmişdir. Belə ki, araşdırma zamanı müəyyən olunmuşdur ki, Abbasov Vasif Çapar oğlu Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının 29.06.2000-ci il tarixli hökmü ilə Azərbaycan Respublikası CM-in 94-cü maddəsinin 1,3,4,6-cı bəndləri, 93-5 maddəsinin 2-ci hissəsi, 252-ci maddəsinin "v" bəndi, 105-ci maddəsi, 246-cı maddəsinin "a" bəndi, 207-ci maddəsinin 3-cü hissəsi, 220-1 maddəsinin 2-ci hissəsi, 220-ci maddəsinin 1-ci hissəsi və 243-cü maddələri ilə təqsirli bilinib 14 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir. Onun cəzaçəkmə müddətinin əvvəli 31.01.2000-ci il tarixdən hesablanmaqla cəzası 31.01.2014-cü il tarixdə başa çatır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 6 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum Abbasov Vasif Çapar oğlu ərizə ilə Bakı şəhər Nizami Rayon Məhkəməsinə müraciət edərək cəzasının çəkilməmiş hissəsindən vaxtından əvvəl azad edilməsinə dair qərar qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhər Nizami Rayon Məhkəməsinin (hakim Z.Əliyev) 15 may 2012-ci il tarixli 7(007)-746/12 saylı qərarı ilə ərizə təmin edilmiş, məhkum Abbasov Vasif Çapar oğlu cəzasının çəkilməmiş hissəsindən (1 il 8 ay 16 gün) şərti olaraq vaxtından əvvəl azad olunmuşdur.

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyasının 15 oktyabr 2012-ci il tarixli qərarı ilə apellyasiya protesti təmin edilərək Nizami Rayon Məhkəməsinin 15 may 2012-ci il tarixli qərarı ləğv edilmiş, məhkum V.Abbasovun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinə dair ərizəsi təmin edilməmişdir. Eyni zamanda işə baxan hakim Z.Əliyev barədə xüsusi qərar çıxarılmışdır.

AR CM-in 76-cı maddəsinə əsasən məhkəmə islah işləri, intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma və ya müəyyən müddətə azadlıqdan məhrumetmə növündə cəza çəkən şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gələrsə, onu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər.

Həmin Məcəllənin 76.3.3-cü maddəsinə əsasən cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, məhkum ağır və ya xüsusilə ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı dörddə üç hissəsini, habelə əvvəllər cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs, əgər şərti olaraq vaxtından əvvəl azad etmə bu Məcəllənin 76.6-cı maddəsində nəzərdə tutulmuş əsaslara görə ləğv edilmişdirsə, yaxud əvvəllər azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmişdirsə, təyin edilmiş cəza müddətinin ən azı dörddə üç hissəsini həqiqətən çəkdikdən sonra tətbiq edilə bilər.

Araşdırma materiallarında olan Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 6 saylı cəzaçəkmə müəssisəsi tərəfindən məhkum Abbasov Vasif Çapar oğlu barəsində tərtib edilmiş mülahizədə göstərilir ki, cəza çəkdiyi müddətdə daxili intizam qaydalarını pozduğuna görə məhkum V.Abbasov barəsində 24 dəfə tənbeh tədbirləri tətbiq edilmiş, məhkumla mütəmadi olaraq tərbiyəvi söhbətlər aparılmış, ona düzgün istiqamət verilmişdir. Məhkum onunla aparılan söhbətlərdən müsbət nəticə çıxararaq daxili intizam qaydalarına əməl etmişdir, əməyə münasibəti yaxşı olduğundan məhkum V.Abbasov süpürgəçi təyin edilmişdir, törətdiyi cinayət əməlində günahını başa düşmüş və peşmançılıq hissi keçirdiyini bildirmişdir. Məhkum V.Abbasov dəstədə keçirilən mədəni-kütləvi tədbirlərdə, müəssisədə aparılan abadlıq işlərində yaxından iştirak etdiyinə görə müəssisə rəhbərliyi tərəfindən ona 31 dekabr 2011-ci il və 19 mart 2012-ci il tarixlərində iki dəfə təşəkkür elan edilmişdir, qeyd olunanlara əsasən cəzaçəkmə müəssisəsinin rəhbərliyi onun Azərbaycan Respublikası CM-in 76.3.3-cü maddəsinə əsasən cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmasını məqsədə uyğun hesab etmişdir.

Bakı şəhər Nizami Rayon Məhkəməsinin hakimi Z.Əliyev məhkum V.Abbasovun cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmasını qərara alarkən 6 saylı cəzaçəkmə müəssisəsinin mülahizəsinə tənqidi yanaşmayaraq orada göstərilənləri mütləq həqiqət kimi qəbul etməklə məhkumun ərizəsinin təmin olunması üçün əsas hesab etmiş, mülahizəsini məhkumun şəxsi işi ilə müqayisəli şəkildə təhlil edərək lazımi hüquqi qiymət verməmişdir.

Materiallarda olan məhkum V.Abbasovun şəxsi işindən görünür ki, cəza çəkdiyi müddət ərzində daxili rejim qaydalarını pozduğuna görə onun barəsində 24 dəfə tənbeh tədbiri görülmüşdür. Belə ki, o, 10.12.2000-ci il tarixdə 15 gün, 28.08.2004-cü il tarixdə 10 gün, 13.11.2004-cü il tarixdə 15 gün, 27.03.2005-ci il tarixdə 5 gün, 13.11.2005-ci il tarixdə 15 gün, 08.09.2006-cı il tarixdə 15 gün, 04.12.2007-ci il tarixdə 15 gün, 30.04.2008-ci il tarixdə 15 gün, 06.11.2009-cu il tarixdə 15 gün, 16.03.2010-cu il

tarixdə 5 gün, 01.04.2010-cu il tarixdə 15 gün, 13.05.2010-cu il tarixdə 10 gün və 23.08.2010-cu il tarixdə isə 3 gün cərimə təcridxanasına keçirilmiş, 31.03.2005-ci il tarixdə 5 ay, 17.05.2008-ci il tarixdə 3 ay, 26.11.2009-cu il tarixdə 2 ay və 24.05.2010-cu il tarixdə 3 ay kamera tipli otağa keçirilmiş, 03.03.2006-cı il, 20.04.2006-cı il, 23.09.2006-cı il və 29.04.2007-ci il tarixlərdə isə onun barəsində töhmət elan edilmişdir.

Göründüyü kimi məhkum V.Abbasov cəza çəkdiyi müddət ərzində daxili rejim qaydalarını pozduğuna görə dəfələrlə, yəni ümumilikdə 24 dəfə tənbeh olunmuş (həmin tənbeh tədbirlərindən 13-ü cərimə təcridxanasına keçirmə, 4-ü isə kamera tipli otağa keçirmə növündə olmaqla, həmin tənbeh tədbirləri ciddi rejim pozuntusuna yol verən və çətin tərbiyə olunan məhkumların barəsində tətbiq edilir) və bütövlükdə cəza çəkdiyi müddət ərzində heç də müsbət xarakterizə olunmamış və ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə və sair cinayətlərə görə məhkum edilmişdir.

Lakin işə baxan hakim Z.Əliyev işin göstərilən hallarına lazımi qiymət verməmiş, məhkum V.Abbasovun çox qısa müddət ərzində islah yoluna qədəm qoyaraq nümunəvi məhkuma çevrilməsinin açıq-aşkar qeyri-real olduğunu nəzərə almadan onun ərizəsini təmin etməklə işin faktiki hallarına uyğun olmayan nəticəyə gəlmiş, bununla da cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə əlaqədar məsələləri tənzim edən qanun normalarının müddəalarını kobud surətdə pozmuşdur.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzaçəkmədən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında” 08 oktyabr 2010-cu il tarixli 02/2010 saylı qərarın 1-ci bəndində qeyd olunmuşdur ki, məhkəmələr cəzaçəkmə müəssisəsinin mülahizəsinin mənfi və ya müsbət olmasından asılı olmayaraq, mülahizənin əsaslığını məhkumun şəxsi işi, proses iştirakçılarının izahatları və digər sənədlərlə əlaqəli araşdırmalı və nəticəsindən asılı olaraq müvafiq qərar qəbul etməlidir.

Eyni zamanda həmin qərarın 2-ci bəndində qeyd olunmuşdur ki, məhkumun cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması və cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi imperativ norma deyil. Qanunverici həmin normaların tətbiq olunmasını məhkəmənin cəzaçəkən şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gəlməsi, habelə azadlıqdan məhrumetmə növündə cəza çəkən şəxsin cəzaçək-

mə müddətində davranışı, əməyə münasibəti, bir sözlə cəza çəkdiyi müddətdə şəxsiyyətini səciyələndirən hallarla şərtləndirmişdir.

Beləliklə, araşdırma ilə müəyyən edilmişdir ki, Bakı şəhər Nizami Rayon Məhkəməsinin hakimi Z.Əliyev məhkum V.Abbasovun cəzasının çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad edilməsinə dair ərizəsinə baxarkən qanunvericiliyin tələblərini kobudcasına pozmuşdur.

Məhkəmə-Hüquq Şurasının Bakı şəhər Sabunçu Rayon Məhkəməsinin hakimi E.Kazımovun barəsində çıxardığı 06 fevral 2013-cü il tarixli qərarından görünür ki, Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən respublikanın birinci instansiya məhkəmələri tərəfindən tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi, belə tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ləğv edilməsi ilə bağlı 2010-2011-ci illərdə baxılmış işlər üzrə qanunvericiliyin tətbiqi təcrübəsi öyrənilərkən müəyyən edilmişdir ki, hakim E.Kazımovun sədrliyi ilə 2010-2011-ci illərdə baxılmış, ictimai təhlükəli əməli anlaqsız vəziyyətdə törətmiş və ya ictimai təhlükəli əməli törətdikdən sonra psixi xəstəliyə tutulmuş və bunun nəticəsində öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxslər barəsində tətbiq edilmiş tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ləğv edilməsi ilə bağlı bəzi işlər üzrə qanunvericiliyin tələbləri pozulmuşdur.

AR CM-in 98.1-ci maddəsinə əsasən tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ya ləğv edilməsi həkim-psixiatr komissiyasının rəyi əsasında müalicəni həyata keçirən tibbi müəssisənin müdiriyyətinin vəsatəti əsasında həyata keçirilir. Buna baxmayaraq, hakim E.Kazımovun sədrliyi ilə baxılmış 8 iş üzrə tibbi rəylərin həkim-psixiatr komissiyası tərəfindən deyil, buna səlahiyyəti olmayan həkim-məsləhət komissiyası tərəfindən verilməsi nəzərə alınmadan bu işlərə nəticə verilmişdir.

Bundan əlavə, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 19 may 2010-cu il tarixli qərarı ilə AR CM-in 120.2.4-cü maddəsində nəzərdə tutulan ictimai təhlükəli əməli anlaqsız vəziyyətdə törətmiş, yəni ailə-məişət zəminində aralarında baş vermiş mübahisə zamanı arvadı N.Həsənovanı xüsusi amansızlıqla öldürmüş Həsənov İlqar Məhiyyəddin oğlu cinayət məsuliyyətindən azad edilərək onun barəsində ixtisaslaşdırılmış psixiatriya stasionarında məcburi müalicə tətbiq edilmişdir.

İ.Həsənovun barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edildikdən 7 ay sonra Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 1 saylı Respublika Psixiatriya Xəstəxanasının rəhbərliyi xəstəxananın Həkim-Məsləhət Komissiyasının 18 dekabr 2010-cu il tarixli tibbi rəyi əsasında Bakı şəhər Sa-

bunçu Rayon Məhkəməsinə müraciət edərək İ.Həsənovun Ümumi Tipli Psixiatriya Stasionarında məcburi müalicəyə keçirilməsini xahiş etmişdir.

Bakı şəhər Sabunçu Rayon Məhkəməsinin 17 yanvar 2011-ci il tarixli qərarı ilə (hakim E.Kazımov) 1 saylı Respublika Psixiatriya Xəstəxanasının 23 dekabr 2010-cu il tarixli təqdimatı təmin edilərək İ.M.Həsənov ixtisaslaşdırılmış Psixiatriya Stasionarında məcburi müalicədən Ümumi Tipli Psixiatriya Stasionarında məcburi müalicəyə keçirilmişdir.

İşə əlavə edilmiş 1 saylı Psixiatriya Xəstəxanasının Həkim Məsləhət Komissiyasının 18 dekabr 2010-cu il tarixli tibbi rəyində İ.Həsənovun "epilepsiya xəstəliyi nəticəsində şəxsiyyətin dəyişikliyi" diaqnozlu xəstəlikdən əziyyət çəkməsi qeyd olunmasına baxmayaraq, həmin rəydə onun intensiv müşahidə tələb etməyən və öz psixi vəziyyətinə görə stasionar müşahidəyə və müalicəyə ehtiyacı olan xəstə kimi Ümumi Tipli Psixiatriya Stasionarına keçirilməsi məsləhət görülmüşdür.

Həkim Məsləhət Komissiyasının rəyində xüsusilə ağır cinayət əməli törətmiş və ciddi psixi xəstəlikdən əziyyət çəkən İ.Həsənovun vəziyyətinin qısa müddət ərzində yaxşılaşması və ixtisaslaşdırılmış psixiatriya stasionarından ümumi tipli psixiatriya stasionarına keçirilməsinin səbəblərinin kifayət qədər əsaslandırılmamasına baxmayaraq, məhkəmə bu rəyə istinad edərək qəbul etdiyi qərarda gəldiyi nəticəni kifayət qədər əsaslandırmadan təqdimatı təmin etdiyinə görə Prokurorluğun apellyasiya protestinə əsasən Bakı Apellyasiya Məhkəməsinin 30 mart 2011-ci il tarixli qərarı ilə İ.Həsənovun Ümumi Tipli Psixiatriya Stasionarına keçirilməsi barədə Bakı şəhər Sabunçu Rayon Məhkəməsinin 17 yanvar 2011-ci il tarixli qərarı əsassız olduğundan ləğv edilərək 1 saylı Psixiatriya Xəstəxanasının vəsatəti təmin olunmamışdır.

Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 27 noyabr 2001-ci il tarixli qərarı ilə CM-in 228.4, 126.2.4 və 221.3-cü maddələrində nəzərdə tutulan ictimai təhlükəli əməli anlaqsız vəziyyətdə törətmiş Elşad Əliyev cinayət məsuliyyətindən azad edilərək barəsində ixtisaslaşdırılmış psixiatriya stasionarında intensiv müşahidə altında tibbi xarakterli məcburi tədbir tətbiq edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 1 saylı Respublika Psixiatriya Xəstəxanasının rəhbərliyi 10 iyul 2010-cu il tarixdə Bakı şəhər Sabunçu Rayon Məhkəməsinə müraciət edərək xəstəxananın Həkim-Məsləhət Komissiyasının 23 iyul 2010-cu il tarixli tibbi rəyi əsasında xəstə E.Əliyevin Ümumi Tipli Psixiatriya Stasionarından məcburi ambulatoriya müşahidəsinə və psixiatr müalicəsinə keçirilməsini xahiş etmişdir.

Bakı şəhər Sabunçu Rayon Məhkəməsinin 23 iyul 2010-cu il tarixli qərarı ilə (hakim T.Qubadov) E.Əliyevin məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsinə keçirilməsinə dair 1 saylı Respublika Psixiatriya Xəstəxanasının təqdimatı rədd edilmişdir.

Bundan 5 ay sonra, yəni 24 dekabr 2010-cu il tarixdə 1 saylı Respublika Psixiatriya Xəstəxanasının rəhbərliyi yenidən Bakı şəhər Sabunçu Rayon Məhkəməsinə müraciət edərək E.Əliyevin məcburi ambulatoriya müşahidəsinə və psixiatr müalicəsinə keçirilməsini xahiş etmişdir.

Bakı şəhər Sabunçu Rayon Məhkəməsinin 17 yanvar 2011-ci il tarixli qərarı ilə (hakim E.Kazımov) E.Əliyevin ambulatoriya müşahidəsi və psixiatr müalicəsinə keçirilməsi haqda təqdimatı rədd edilmişdir.

Məhkəmə işə baxarkən həmin iş üzrə xəstəxananın təqdimatı ilə tibbi rəy arasında ziddiyyətli məlumatlar olmasına əhəmiyyət verməmiş və bu ziddiyyətin səbəbini araşdırmadan təqdimatı rədd etmişdir.

Belə ki, 1 saylı Respublika Psixiatriya Xəstəxanasının E.Əliyevin məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsinə keçirilməsinə dair 24 dekabr 2010-cu il tarixli təqdimatda E.Əliyevin 18 dekabr 2010-cu il tarixdə Həkim-Məsləhət Komissiyası tərəfindən müayinə olunması qeyd edilsə də, işə 03 iyul 2010-cu il tarixli rəy əlavə olunmuşdur.

Məhkəmə bu ziddiyyəti araşdırmadan, işin baxılmasına səthi yanaşaraq faktiki surətdə 5 ay 15 gün əvvəl verilmiş rəyə əsaslanaraq təqdimatın rədd edilməsi haqda qərar qəbul etmişdir.

Məhkəmə-Hüquq Şurasının Bakı şəhər Nizami Rayon Məhkəməsinin hakimi A.İ.İsmayılovun barəsində çıxardığı 14 iyun 2013-cü il tarixli qərarından görünür ki, məhkum İbrahimov Nəriman Elman oğlunun cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad edilməsinə dair ərizəsinə 17 oktyabr 2012-ci ildə baxılarkən kobud qanun pozuntusuna yol verilmişdir.

Məhkəmənin həmin qərarından verilmiş apellyasiya protestinə əsasən Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 30 oktyabr 2012-ci il tarixli qərarı ilə apellyasiya protesti təmin edilərək Bakı şəhər Nizami Rayon Məhkəməsinin 17 oktyabr 2012-ci il tarixli qərarı ləğv edilmiş, məhkum N.E.İbrahimovun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi barədə ərizəsinin təmin edilməsindən imtina olunmuş, onun məhkum olunduğu azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş qalan 2 il 2 ayını çəkməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 15 saylı cəzaçəkmə müəssisəsinə qaytarılması qərara alınmışdır.

Materiala birinci instansiya məhkəməsində baxan Bakı şəhər Nizami Rayon Məhkəməsinin hakimi A.İ.İsmayılovun fəaliyyətində kobud qanun pozuntuları aşkar edilmişdir.

İbrahimov Nəriman Elman oğlunun barəsində olan Rusiya Federasiyası Moskva Vilayət Məhkəməsinin 03 mart 2005-ci il tarixli hökmü Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 10 noyabr 2006-cı il tarixli qərarı ilə Azərbaycan Respublikası qanunvericiliyinə uyğunlaşdırılaraq onun əmalləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144.2.3, 181.3.1, 181.3.2, 182.3.1, 182.3.2, 217.2 və 228.3-cü maddələrinə tövsif edilməklə və 181.3.1, 181.3.2-ci maddələri üzrə CM-in 62-ci maddəsi tətbiq edilməklə həmin Məcəllənin 66.3-cü maddəsinə əsasən təyin olunmuş cəzaları qismən toplamaq yolu ilə cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə üzərində qəti olaraq 12 il müddətinə azadlıqdan məhrumetmə cəzası müəyyən edilmişdir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 15 saylı cəzaçəkmə müəssisəsi tərəfindən məhkum N.E.İbrahimov barəsində verilmiş 15 oktyabr 2012-ci il tarixli mülahizədə məhkumun 1 saylı cəzaçəkmə müəssisəsində cəza çəkdiyi müddətdə rejim pozuntularına yol verdiyinə görə həmin müəssisə rəhbərliyi tərəfindən dörd dəfə intizam qaydasında tənbeh edildiyi, 15 saylı cəzaçəkmə müəssisəsi tərəfindən isə dörd dəfə həvəsləndirmə tədbirləri tətbiq olunduğu və müsbət xarakterizə edildiyi göstərilməklə, onun cəzasının çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad olunması məqsədə uyğun hesab edilmişdir.

Məhkum N.E.İbrahimovun cəzasının qanunla müəyyən edilmiş dörddə üç hissəsini çəkib barəsində verilmiş mülahizədə müsbət xarakterizə olunsa da, həmin mülahizənin əsaslılığı, məhkumun islah olunub-olunmaması və cəzasının çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad olunmasının mümkünlüyü məsələləri tam, hərtərəfli və obyektiv araşdırılmamış, onun bütün cəza çəkdiyi müddətdəki davranışları təhlil edilməmişdir.

Məhkum N.İbrahimovun cəza çəkdiyi müddətdəki davranışlarını əks etdirən şəxsi işindən görünür ki, onun barəsində Rusiya Federasiyasında cəza çəkdiyi müddətdə 12 sentyabr 2005-ci il tarixdən 10 mart 2006-cı il tarixə kimi səkkiz dəfə intizam tənbeh tədbirləri tətbiq edilmişdir.

Həmçinin məhkum N.İbrahimovun şəxsi işində olan Rusiya Federasiyası Ədliyyə Nazirliyinin Cəzaların İcrası Federal Xidmətinin tərtib etdiyi arayışda onun kriminal aləmdə müəyyən mövqeyə malik olduğu göstərilmişdir.

Bundan başqa, məhkum N.İbrahimov 02 sentyabr 2006-cı il tarixdə Azərbaycan Respublikasına ekstradisiya edildikdən sonra cəza çəkdiyi müəssisə-

də daxili rejim qaydalarını pozduğuna görə barəsində dörd dəfə intizam tənbeh tədbirləri tətbiq edilmiş, 01 iyul 2007-ci il tarixdə 1 saylı cəzaçəkmə müəssisəsində bir qrup məhkuma qarşı ədavəti olduğundan onlardan təcrid olunması məqsədilə on gün müddətində təhlükəsiz yerə keçirilmiş, onlarla münasibəti düşmənçilik həddinə çatdığına görə isə 09 iyul 2010-cu il tarixdə 15 saylı çəzaçəkmə müəssisəsinə keçirilmişdir. Məhkumun şəxsi işində olan və cəza çəkdiyi müddətdəki davranışlarının yekunlarını əks etdirən illik xasiyyətnamələrin heç birində onun islah olunduğu göstərilməmiş, əksinə 2009-cu il üzrə islah yoluna qədəm qoymadığı, 2010 və 2011-ci illərdə isə islah olunmağa səy göstərdiyi qeyd olunmuşdur.

Bakı şəhər Nizami Rayon Məhkəməsi məhkumun cəzaçəkmə müddətindəki davranışını və törətdiyi cinayətlərə münasibətini lazımınca nəzərə almadan məhkum N.İbrahimovun şəxsi işini nəzərdən keçirib onu səciyyələndirən hallara qiymət vermədən, onun islah olunmaq üçün cəzasını tam çəkməsinə lüzum olduğu halda, qanuna zidd qərar qəbul etməklə onu cəzadan şərti olaraq vaxtından əvvəl azad etmişdir.

Bununla da birinci instansiya məhkəməsinin hakimi cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə əlaqədar məsələləri tənzim edən qanun normalarının müddəalarına əməl etməməklə onları kobud surətdə pozmuşdur.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 513.1-ci maddəsinə əsasən cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə məhkumun ərizəsi, habelə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatəti əsasında cinayət qanununun müddəalarına müvafiq olaraq cinayət cəzalarını icra edən müəssisə və ya orqanın mülahizəsi nəzərə alınmaqla cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən tətbiq olunur.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" 08 oktyabr 2010-cu il tarixli qərarında qeyd olunur ki, məhkəmələr cəzaçəkmə müəssisəsinin mülahizəsinin mənfi və ya müsbət olmasından asılı olmayaraq mülahizənin əsaslılığını məhkumun şəxsi işi, proses iştirakçılarının izahatları və digər sənədlərlə əlaqəli araşdırmalı və nəticəsindən asılı olaraq müvafiq qərar qəbul etməlidirlər. Məhkəmələr mülahizədə irəli sürülmüş dəlillərlə kifayətlənməməli, ümumi və şablon ifadələrə əsas-

lanmamalı, müraciətin tam, hərtərəfli və obyektiv yoxlanması üçün bütün qanuni vasitələrdən istifadə etməlidirlər.

Materiala baxan Bakı şəhər Nizami Rayon Məhkəməsinin hakimi A.İsmayılov isə məhkum N.İbrahimovun cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmasını qərara alarkən məhkumun şəxsi işindəki materialları ətraflı araşdırmadan 15 saylı cəzaçəkmə müəssisəsi tərəfindən verilmiş formal xarakterli mülahizəyə istinad etməklə əsassız qərar qəbul etmişdir.

Məhkəmə-Hüquq Şurasının təhlil edilən qərarlarında cinayət və mülki mühakimə icraatına aid olan pozuntular maddi və prosessual hüquq normalarının pozulmasında ifadə edilmişdir.

Hesab edirik ki, Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi qərarların, həmin qərarlarda intizam məsuliyyətinə səbəb olan əsaslar kimi müəyyən edilən halların öyrənilməsi faydalı olacaq.

Ümid edirik ki, muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən işlərə baxılması zamanı belə hallara yol verilməyəcəkdir.

≈≈≈





**Yusifəli Süleyman oğlu Qurbanov**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin hakimi*

# Qiyabi məhkəmə icraatının aparılmasının ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi prinsipinə təsirinin xüsusiyyətləri haqqında

Qiyabi icraat Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – AR MPM) 17-ci fəslində bu icraat qaydası üçün müəyyən edilmiş spesifik xüsusiyyətlər nəzərə alınmaqla mülki məhkəmə icraatının ümumi qaydaları əsasında mülki və iqtisadi mübahisəyə dair işə cavabdehin iştirakı olmadan mahiyyəti üzrə baxılmasını özündə ehtiva edir.

Qiyabi icraat mülki prosessual qanunvericilik üçün yeni hüquq institutu olmaqla mülki məhkəmə icraatında ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi prinsipinin realizə olunmasına özünəməxsus şəkildə təsir göstərir.

İşə qiyabi icraat qaydasında baxılarkən iddiaçı və cavabdeh arasında mübahisənin şifahi formada aparılması (şifahi çəkişmə) cavabdehin məhkəmə iclasında iştirak etməməsi səbəbindən mümkün olmadığı üçün qiyabi icraat zamanı çəkişmə prinsipi cavabdehin iştirakı ilə keçirilən məhkəmə baxışında olduğu səviyyədə realizə oluna bilməsə də, sözügedən prinsipə riayət olunması istisna edilmir. Belə ki, bu qayda qiyabi icraatın çatışmayan cəhəti deyil, əksinə, onun ayrılmaz xüsusiyyətidir. Bu zaman iddiaçı qiyabi icraat qaydasında baxılan işdə sübutların tədqiq edilməsində iştirak edir, məhkəməyə şifahi və yazılı izahatlar verir və s. İcraatın qiyabilik əlaməti yalnız məhkəmə iclasında iştirak etməyən cavabdehə münasibətdə özünü göstərir. Məhz bu xüsusiyyət nəzərə alınmaqla çəkişmə prinsipinin mümkün qədər daha dolğun həyata keçirilməsindən ötrü qanunvericilik qiyabi icraat üçün xarakterik olan müəyyən əlavə təminatlar müəyyən edir. Məsələn, cavabdehin iştirakı olmadan qiyabi icraat qaydasında baxılmış mülki işə cavabdehin iştirakı ilə həmin məhkəmədə yenidən baxılması (AR MPM-in 251-ci maddəsi) və s.

AR MPM-in 238.1-ci maddəsində deyilir: "İclasın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdeh məhkəmə iclasına gəlmədikdə və gəlməməsinin səbəbləri barədə məlumat vermədikdə, iddiaçı buna etiraz etmədikdə, işə qiyabi icraat qaydasında baxıla bilər".

Göründüyü kimi sözü gedən maddə qiyabi icraatın əsası kimi aşağıdakı şərtləri nəzərdə tutur:

1. İclasın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdehin məhkəmə iclasına gəlməməsi və gəlməməsinin səbəbləri barədə məlumat verməməsi;

2. İddiaçının işə qiyabi icraat qaydasında baxılmasına etiraz etməyərək razılıq verməsi.

Məhkəmə tərəfindən mülki işə qiyabi icraat qaydasında baxılması üçün qeyd edilən hər iki şərt məcmu halda mövcud olduqda işə qiyabi icraat qaydasında baxmaq mümkün olur. Əks təqdirdə şərtlərdən birinin olmaması qiyabi məhkəmə icraatını istisna edir.

AR MPM-in 238.3-cü maddəsinin tələbinə əsasən işdə cavabdehin lazımi qaydada xəbərdar edilməsi barədə məlumatlar olmalıdır. Belə məlumatlar cavabdehin məhkəmə iclasının vaxtı və yeri barədə lazımi qaydada xəbərdar edildiyini təsdiq edən müvafiq təsdiqedici sənədlərdə öz əksini tapır. Belə sənədlərə məhkəmə bildirişinin cavabdeh tərəfindən imzalanan və məhkəməyə qaytarılan kötüyü, məhkəmə bildirişinin cavabdehə imza etdirməklə təqdim olunmasına dair qəbz, məhkəmə bildirişinin cavabdehə poçt vasitəsilə sifarişli məktubla çatdırılmasına dair müvafiq rabitə orqanının möhürü ilə təsdiq edilmiş xəbərnamə və s.

Avropa İnsan Hüquqları Məhkəməsi işdə iştirak edən şəxslərin xəbərdar edilmədən işə baxılmasının "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsini (ədalətli məhkəmə araşdırması hüququ) pozduğunu dəfələrlə öz qərarlarında qeyd etmişdir. ***"Qroşev Rusiyaya qarşı"*** iş üzrə 20 oktyabr 2005-ci il tarixli qərarında Avropa İnsan Hüquqları Məhkəməsi göstərmişdir ki, "Konvensiya nəzəri və ya xəyali hüquqları deyil, praktiki və səmərəli hüquqları təmin etməyə yönəlmişdir. Avropa Məhkəməsi belə qənaətə gəlmişdir ki, iş üzrə tərəf iclasda iştirak etmək imkanına malik olduğu tərzdə onun keçirilməsi barədə məlumatlandırılmadığı halda, ədalətli və açıq məhkəmə araşdırılması hüququ mahiyyətindən məhrum edilmiş olur.

Ədalətli məhkəmə araşdırması hüququ prosesin çəkişmə xarakterli olması barədə fundamental hüququ özündə ehtiva edir. Bu isə öz növbəsində tələb edir ki, tərəflərə qarşı tərəfin təqdim etdiyi qeydlərdən və sübutlardan

xəbərdar olmaq və onlar barəsində izahat vermək məsələsində bərabər imkanlar verilsin. Tərəflərin bərabərliyi prinsipi tərəflər arasında balans baxımından ədalətli məhkəmə araşdırması hüququnun mühüm xüsusiyyəti olub prosesin çəkişmə xarakterinə xas olan cəhətdir. Mahiyyət etibarı ilə bu prinsip tələb edir ki, *"hər bir tərəf öz arqumentlərini, o cümlədən sübutlarını təqdim etmək üçün ağlabatan imkana malik olmalı və əks tərəfin qarşısında əlverişsiz vəziyyətə salınmamalıdır"*. Tərəflərin prosessual hüquq bərabərliyi onların öz hüquq və mənafelərini müdafiə etmək üçün hüquqi cəhətdən tam bərabər imkana malik olduğunu ehtiva edir. Ədalət mühakiməsi həyata keçirilərkən tərəflərin bərabərliyinin təminatçısı onların təqdim etdiyi sübutların araşdırılmasıdır".

Məhkəmə iclasının vaxtı və yeri barədə lazımi qaydada xəbərdar edilmiş cavabdehin məhkəmə iclasına gəlməməsi yalnız o halda işə qiyabi icraat qaydasında baxılması üçün əsas ola bilər ki, onun gəlməməsinin səbəbləri məhkəmə tərəfindən üzrsüz hesab edilsin. MPM-in 238.1-ci maddəsi işə qiyabi icraat qaydasında baxılması üçün cavabdehin məhkəmə iclasına gəlməməsinin səbəbləri barədə məlumat verməməsi halında tətbiq olunur. Lakin nəzərə almaq lazımdır ki, məhkəmə iclasına gəlməyən cavabdeh gəlməməsinin səbəbləri haqqında məhkəməyə məlumat versə də, məhkəmə onun göstərdiyi səbəbləri üzrsüz saydıqda da işə qiyabi icraat qaydasında baxa bilər. Bununla yanaşı, AR MPM-in 240.1.2-ci maddəsinə görə cavabdeh üzrlü səbəbdən məhkəməyə gəlmədikdə və ya məhkəməyə gəlməməyinin səbəblərinin təbii fəlakətlə və ya digər qarşısıalınmaz hadisə ilə əlaqədar olması məhkəmədə aşkar məlum olduqda işə qiyabi icraat qaydasında baxılması yolverilməzdir.

Qiyabi icraatın əsaslarından biri də iddiaçının işə qiyabi icraat qaydasında baxılmasına etiraz etməməsidir, başqa sözlə, buna razılıq verməsidir. İddiaçının yazılı formada ifadə edilmiş razılığı yoxdursa, məhkəmə icraatı qiyabi qaydada həyata keçirilmir və AR MPM-in 239-cu maddəsi tətbiq edilməklə məhkəmə işin baxılmasını təxirə salır və cavabdehə yeni məhkəmə iclasının yeri və vaxtı barədə məhkəmə bildirişi göndərir. İşə qiyabi baxılmasına iddiaçının razılığı yazılı formada olmalıdır. Qanunvericilikdə iddiaçının yazılı formada ifadə etdiyi razılığın hansı prosessual sənəddə göstərilməsinə dair hər hansı məhdudiyyət müəyyən edilmədiyi üçün hesab edirik ki, bu razılıq ərizədə və ya vəsatətdə əks oluna bilər və ya məhkəmə iclas protokoluna yazılmaqla iddiaçı tərəfindən imzalana bilər.

Qiyabi icraat qaydasının tətbiqi iddiaçı üçün müəyyən məhdudiyyət, cavabdeh üçün isə əlavə imkan yaradır. Belə ki, MPM-in 53-cü maddəsi

iddiaçının məhkəmə qətnaməsi qəbul edilənə kimi iddianın əsasını və ya predmetini dəyişdirmək, iddia tələbinin həcmini artırmaq və ya azaltmaq hüququ verdiyi halda, MPM-in 241.3-cü maddəsi iddia tələbinin həcminin azaldılması istisna olmaqla, iddiaçının qeyd edilən hüquqlarını aradan qaldırır. İlk baxışdan bu tərəflərin hüquq bərabərliyi prinsipinin pozulması kimi görünsə də, nəzərə almaq lazımdır ki, qiyabi icraatın aparılmasında həyata keçirilən bir tərəfə münasibətdəki məhdudiyyət digər tərəfə verilən əlavə imkana bərabər tutulur. Məsələn, məhkəmə baxışında iştirak etməyən cavabdehlə müqayisədə iddiaçının sübutlar təqdim etmək, öz tələb və etirazlarını əsaslandırmaq imkanı olur. İddiaçının bu imkanına isə cavabdehin qiyabi qətnamə çıxarıldıqdan sonra ərizə vermək yolu ilə həmin qətnamənin ləğvini tələb etməsi hüququ bərabər olur. Göründüyü kimi qiyabi icraatın aparılması çəkişmə və tərəflərin hüquq bərabərliyi prinsipinə özünəməxsus şəkildə təsir edərək onu pozmur.

Bütün bu deyilənlər isə ilk növbədə ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi prinsipinin realizə olunmasına yönəlmişdir. Mülki məhkəmə icraatı zamanı çəkişmə və tərəflərin hüquq bərabərliyi prinsipləri bir-birindən ayrılmazdır və bir-birini tamamlayır. Çünki çəkişmə prinsipi mülki prosesdə sübutetmə vəzifəsinin daşıyıcısı olan, prosessual mövqeləri üst-üstə düşməyən hər bir işdə iştirak edən şəxsə aiddir və onların bir-birinə zidd olan maddi-hüquqi maraqlara malik olmasından irəli gəlir. Çəkişmə prinsipi tərəflərin öz hüquqi mövqeyini müdafiə etmək üçün irəli sürdükləri tələb və etirazların əsaslarını sübut etmək vəzifələrini - bunun üçün sübutlar təqdim etmək, vəsatətlər vermək və başqa zəruri prosessual hərəkətləri etmək imkanını müəyyən edir. Çəkişmə prinsipi müəyyən edilmiş sübutetmə qaydasıdır. Bu qaydaya uyğun olaraq işdə iştirak edən hər bir şəxs öz tələb və etirazlarını əsaslandırdığı halları sübut edir. İşə hərtərəfli baxılması və məhkəmə tərəfindən qanuni və əsaslandırılmış qərarın çıxarılması tərəflərin prosesdə çəkişməsi, yəni öz mövqeyini müdafiə etmək üçün dəlillər gətirməsi, əks tərəfin sübutlarını və dəlillərini təkzib etmək üçün geniş imkanların olması ilə təmin olunur. Çəkişmə prinsipi onun əsasını təşkil edən tərəflərin prosessual hüquq bərabərliyi prinsipindən ayrılmazdır. Çünki məhz bərabər hüquq və vəzifələr onlara məhkəmə qarşısında çəkişmək imkanı verir. Çəkişmə və prosessual hüquq bərabərliyi bir-birini qarşılıqlı şərtləndirən və tamamlayan prinsiplərdir.

İşə qiyabi icraat qaydasında baxılması bunun üçün qanunda nəzərdə tutulmuş prosessual-hüquqi əsasların mövcudluğu müəyyən edildikdən sonra

məhkəmə tərəfindən müstəqil prosessual akt şəklində müvafiq qərardadın çıxarılması ilə rəsmiləşdirilir.

Qiyabi icraat qaydasında işə baxarkən hakim iddiaçının təqdim etdiyi sübutların tədqiqi ilə kifayətlənir, onun dəlillərini və vəsatətlərini nəzərə alır. Lakin AR MPM-in 241.1-ci maddəsində nəzərdə tutulmuş bu norma qiyabi icraatın işə məhkəmədə baxılmasının sadələşdirilmiş qaydası olduğu nəticəsinə gəlməyə əsas vermir. Belə ki, qiyabi icraatda olduğu kimi, mülki məhkəmə icraatının adi qaydasında da məhkəmə yalnız tərəfin təqdim etdikləri sübutları araşdırır və onlardan istifadə edir (AR MPM-in 14.2-ci maddəsi). Bu baxımdan MPM-in 241.1-ci maddəsinin qiyabi icraatda məhkəmə iclasında tədqiq olunan sübutların həcminə dair müddəası məzmununa görə MPM-in 14.2-ci maddəsinin müddəası ilə eyniyyət təşkil edir.

Qiyabi icraat qaydasında işə baxılarkən tədqiq olunan sübutlar, nəzərə alınan dəlillər və vəsatətlər iddia ərizəsi ilə birlikdə, işin məhkəmədə baxılmağa hazırlanması zamanı, bilavasitə məhkəmə iclasında, eləcə də məhkəmə iclasları arasındakı müddətdə məhkəməyə təqdim edilə, irəli sürülə və ya verilə bilər. İşə qiyabi icraat qaydasında baxan hakimin yalnız tərəflərin təqdim etdiyi sübutların tədqiqi ilə kifayətlənməli olması onu iddiaçıya əlavə zəruri sübutların təqdim edilməsini təklif etmək imkanından məhrum etmir. Lakin məhkəmə və ya hakim bu imkandan yalnız o halda istifadə edə bilər ki, işdə olan sübutlar əsasında işə baxmaq mümkün olmasın (MPM-in 77.3-cü maddəsi). Bu halda AR MPM-in 188-ci maddəsinə əsasən işin baxılması təxirə salınır.

İşin məhkəmədə baxılmağa hazırlanması mərhələsində hakim iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin cavabdehə rəsmi qaydada verilməsini təmin edir (AR MPM-in 168.1-ci maddəsi). İddia ərizəsinin surətini və ona əlavə edilmiş sənədləri almış cavabdeh ona qarşı irəli sürülmüş iddianın predmeti, əsası və həcmi haqqında məlumat əldə edir. Cavabdeh predmeti, əsası və həcmi barəsində məlumatlı olduğu iddia tələbinə dair mülki iş üzrə məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edildikdən sonra məhkəmə iclasına gəlmədiyi üçün işə qiyabi icraat qaydasında baxılarkən iddiaçı tərəfindən iddianın əsasının və ya predmetinin dəyişdirilməsi və ya həcminin artırılması cavabdehə qarşı onun lazımi qaydada xəbərdar edilmədiyi yeni iddianın irəli sürülməsi kimi qiymətləndirilir və cavabdeh yeni predmet barəsində və ya yeni əsasla qaldırılan iddiaya dair mülki iş üzrə lazımi qaydada xəbərdar edilməmiş hesab olunur. Belə olan halda isə işə qiyabi icraat qaydasında baxıla bilməz. Ona görə də qanunvericilik işə qiyabi icraat qaydasında baxılarkən iddianın əsasının və ya pred-

metinin dəyişdirilməsini və ya iddia tələbinin məbləğinin artırılmasını qadağan edir.

Nəzərə almaq lazımdır ki, iddianın əsasının və predmetinin dəyişdirilməsinə və iddia tələbinin məbləğinin artırılmasına dair MPM-in 241.3-cü maddəsində nəzərdə tutulmuş məhdudiyyət yalnız işə qiyabi icraat qaydasında baxılması haqqında qərardad çıxarıldıqdan sonra tətbiq olunur. Bu qərardadın çıxarılmasına qədər mülki məhkəmə icraatı qiyabi qaydada həyata keçirilmədiyi üçün iddiaçı MPM-in 53-cü maddəsinə uyğun olaraq iddianın predmetini və əsasını dəyişdirə və ya onun həcmini artıra və ya azalda bilər. Bu halda iddianın dəyişdirilməsi haqqında iddiaçının ərizəsi MPM-in 134.1.1-ci və 168.1-ci maddələrinə uyğun olaraq rəsmi qaydada cavabdehə təqdim edilməlidir.

AR MPM-in 241.1-ci maddəsinə görə qiyabi icraat qaydasında işə baxan hakim iş üzrə təqdim edilmiş sübutları araşdıraraq iş üzrə qiyabi adlanan qətnamə çıxarır. Bu baxımdan qiyabi qətnamə cavabdehin üzrlü səbəblər olmadan məhkəmə iclasına gəlməməsinə görə ona qarşı tətbiq olunan prosessual sanksiya deyil, qiyabi icraat qaydasında baxılan mülki işin bütün faktiki hallarının nəzərə alınmaqla tam, hərtərəfli və obyektiv araşdırılmasının nəticəsidir. MPM-in 9.3-cü maddəsi məhkəmədən iş üzrə tərəflərin iştirakı ilə çəkişmə şəraitində araşdırma aparılmasını və belə araşdırmanın nəticəsinə istinad edərək qərar qəbul etməsini məhkəmədən tələb edir. Lakin məhkəmə baxışında tərəfləri fəal iştirak etməyə məcbur etmək mümkün olmadığı üçün ayrı-ayrı hallarda tərəflərin passivlik nümayiş etdirməsi (məhkəmə baxışında iştirak etməməsi, izahat verməməsi və s.) iş üzrə qərar qəbul edilməsinə mane olmur.

Mülki işlər üzrə ədalət mühakiməsinin faktlar əsasında həyata keçirilməsi iş üzrə obyektiv həqiqətin və ədalətin təmin edilməsinə yönəlmişdir. Bu prinsipə uyğun olaraq işə baxan məhkəmə hər hansı bir halı yalnız mötəbər sübutlara əsaslanmaqla müəyyən edilmiş hesab edə bilər. Ədalət mühakiməsinin faktlar əsasında həyata keçirilməsi prinsipi məhkəmədən tələb edir ki, işdə iştirak edən şəxslərə istinad etdikləri halları və faktları mötəbər sübutlarla əsaslandırmalı olduqlarını izah etsin, qəbul etdiyi hər bir məhkəmə aktında yalnız öz təsdiqini tapmış faktlara istinad etsin və həmin faktlardan məntiqi olaraq doğan nəticəyə gəlsin.

İddiaçının tələbi əsaslı olduqda məhkəmə onun iddiasını qiyabi qətnamə ilə təmin edir (MPM-in 241.4-cü maddəsi). Qanunun mənasına görə qiyabi icraat qaydasında işə mahiyyəti üzrə baxılmasının nəticəsi kimi qiyabi qətnamə yalnız o halda çıxarıla bilər ki, iddiaçının tələbi tamamilə əsaslı olsun.

Bu halda məhkəmə qiyabi qətnamə ilə iddianı tam təmin edir. Qiyabi qətnamənin nəticə hissəsində qətnaməyə yenidən baxılması üçün ərizə vermə vaxtı və qaydası göstərilməlidir. Qeyd etmək lazımdır ki, qiyabi qətnamənin ləğvi haqqında ərizənin verilməsi hüququ yalnız cavabdehə məxsusdur.

Qiyabi icraat qaydasında mahiyyəti üzrə baxılan iddia məhkəmə tərəfindən rədd olunduqda və ya qismən təmin edildikdə çıxarılan qətnamə işə qiyabi icraat qaydasında mahiyyəti üzrə baxılmasının nəticəsi olsa da, qiyabi hesab edilmir (MPM-in 241.5-ci maddəsi).

İddiaçının dəlilləri iddia tələblərini tamamilə və ya qismən təsdiq etmədikdə, məhkəmə iddianın və ya onun hissəsinin rədd olunmasına dair qətnamə çıxarır və belə qətnamə cavabdehin gəlməməsinə baxmayaraq, qiyabi hesab edilmir. Yəni, əgər belə qətnamə qiyabi hesab olunsaydı, onda iddiası tamamilə və ya qismən rədd olunmuş iddiaçının həmin qətnamədən apellyasiya şikayəti vermək hüququnun həyata keçirilməsi yalnız bu qətnamənin ləğvi üçün ərizənin verilməsi və ona baxılması müddəti bitdikdən sonra mümkün ola bilərdi (AR MPM-in 244, 248, 253.3-cü maddələri). Bu isə məhkəmə müdafiəsi hüququnun həyata keçirilməsində əsassız maneə yaratmış olar.

Qiyabi icraat qaydası ilə bağlı sual doğuran praktiki məsələlərdən biri işə qiyabi icraat qaydasında baxılması haqqında qərardad çıxarıldıqdan sonra cavabdehin və ya onun nümayəndəsinin məhkəmə iclasına gəlməsi ilə əlaqədardır. Belə ki, qüvvədə olan qanunvericilikdə qiyabi qətnamənin bu qərardadın çıxarılmasından dərhal sonra və ya onun çıxarıldığı tarixdə qəbul edilməli olması və ya işə qiyabi icraat qaydasında yalnız bir məhkəmə iclasında baxılması barədə norma yoxdur. Buna görə də işə qiyabi icraat qaydasında baxılması haqqında qərardad çıxarıldıqdan sonra qiyabi qətnamə qəbul olunana qədər iş üzrə bir neçə məhkəmə iclası keçirilə və məhkəmə baxışı qanunla müəyyən edilmiş əsaslarla, o cümlədən iddiaçı tərəfindən əlavə sübutların təqdim olunmasının zəruriliyi ilə əlaqədar təxirə salına bilər. Bu halda cavabdeh və ya onun nümayəndəsi növbəti məhkəmə iclasına gəldikdə işin mahiyyəti üzrə baxılmasının mülki məhkəmə icraatının hansı qaydasında – adi qaydada və yaxud qiyabi qaydada davam etdirilməsi haqqında məsələ qanunvericiliklə birbaşa tənzim olunmur.

Göstərilən situasiyada işə qiyabi icraat qaydasında baxılması haqqında qərardadın mövcud olması məhkəmə iclasına gəlmiş cavabdehin məhkəmə iclasında tərəf kimi iştirakına və prosessual hüquqlarının həyata keçirilməsinə mane ola bilməz, çünki əks halda çəkişmə və tərəflərin bərabərliyi prinsipləri (MPM-in 9-cu maddəsi) pozulmuş olar. Digər tərəfdən, işə qiyabi

icraat qaydasında baxılması haqqında qərardadın çıxarılmasından sonra cavabdehin şəxsən və ya nümayəndə vasitəsilə məhkəmə iclasında iştirak etməsi icraatın qiyabilik əlamətini aradan qaldırır, çünki qiyabi icraat işə məhz cavabdehin iştirakı olmadan baxılmasını nəzərdə tutur. Buradan belə nəticəyə gəlmək olar ki, işə qiyabi icraat qaydasında baxılması haqqında qərardadın çıxarılmasından sonra cavabdeh şəxsən məhkəmə iclasına gəldikdə və ya nümayəndə vasitəsilə təmsil olunduqda işə qiyabi icraat qaydasında baxılması haqqında qərardad ləğv edilməli və məhkəmə iclasına gəlmiş cavabdehin və ya onun nümayəndəsinin hansı icraat qaydasının (adi, yoxsa qiyabi) tətbiqinə münasibətindən asılı olmayaraq işə mahiyyəti üzrə baxılması mülki məhkəmə icraatının adi qaydasında davam etdirilməlidir.

Qiyabi qətnamə çıxarıldıqdan sonra 10 gündən gec olmayan müddətdə işdə iştirak edən şəxslərə rəsmi qaydada verilir. Cavabdeh qətnamənin ona rəsmi qaydada verilməsindən sonra 10 gün müddətində həmin qətnamənin ləğvi üçün qiyabi qətnaməni çıxarmış məhkəməyə ərizə verməyə haqlıdır. Qiyabi qətnamənin ləğvi haqqında ərizə ilə məhkəməyə müraciət etmək cavabdehin hüququ olduğu üçün bu hüququn həyata keçirilməsindən istənilən mərhələdə, ərizəyə məhkəmədə baxılmasına qədər imtina edilə bilər. AR MPM-in 246-cı maddəsinə görə bu halda apellyasiya şikayətindən imtina edilməsi haqqında qaydalar tətbiq edilir. Həmin qaydaları nəzərə almaqla qiyabi qətnamənin ləğvi haqqında ərizə vermiş cavabdeh qiyabi qətnaməni çıxarmış məhkəmə tərəfindən ərizənin təmin olunmaması haqqında və ya ərizənin təmin olunaraq qiyabi qətnamənin ləğv edilməsi və işin təzələnərək mahiyyəti üzrə baxılması haqqında qərardad çıxarılana qədər yazılı formada ondan imtina edə bilər. Bu halda məhkəmə cavabdehin ərizədən imtinasını qəbul edərsə, müvafiq qərardad çıxarır və həmin qərardadla qiyabi qətnamənin ləğvi haqqında ərizəyə baxılmasına xitam verir (MPM-in 369.4-cü maddəsi). Lakin cavabdehin qiyabi qətnamənin ləğvi haqqında ərizədən imtina etməsi və məhkəmənin bu imtinanı qəbul etməsi həm ərizədən imtina etmiş cavabdehi, həm də işdə iştirak edən digər şəxsləri qətnamədən ümumi qaydada apellyasiya şikayəti vermək hüququndan məhrum etmir. Qeyd etmək lazımdır ki, qiyabi qətnamənin ləğvi haqqında ərizədən imtina olunması qiyabi qətnamənin tanınmasına səbəb olmur və buna görə də MPM-in 369.1-ci maddəsinin müddəaları cavabdeh qiyabi qətnamənin ləğvi haqqında ərizədən imtina etdikdə tətbiq oluna bilməz.

Məhkəmənin qiyabi qətnamənin ləğvi haqqında ərizədən imtinanı qəbul edərək həmin ərizəyə baxılmasına xitam verilməsinə dair qərardadından şikayət verilməsinin mümkünlüyü MPM-də, o cümlədən MPM-in 369-cu

maddəsində nəzərdə tutulmamışdır və həm də bu qərardad işdə iştirak edən şəxsləri qiyabi qətnamədən apellyasiya şikayəti vermək hüququndan məhrum etmədiyi üçün (MPM-in 253.3-cü maddəsi) işin sonrakı hərəkətinə, yəni işə apellyasiya şikayətinə əsasən apellyasiya qaydasında baxılmasına mane olmur. Buna görə də apellyasiya icraatına xitam verilməsi haqqında qərardaddan fərqli olaraq qiyabi qətnamənin ləğvi haqqında ərizəyə baxılmasına xitam verilməsi haqqında qərardaddan şikayət verilə bilməz (MPM-in 395.1-ci maddəsi)

Apellyasiya şikayətinin qaytarılmasının əsası olan hallar qiyabi qətnamənin ləğvi haqqında ərizəyə münasibətdə mövcud olduqda (məsələn, ərizə imzalanmadıqda və ya vəzifəsi göstərilməyən şəxs və ya onu imzalamağa hüququ olmayan şəxs tərəfindən imzalandıqda, ərizə onun verilməsi üçün müəyyən edilmiş prosessual müddət buraxıldıqdan sonra verildikdə və buraxılmış müddətin bərpası haqqında ərizə verilmədikdə və s.) MPM-in 13.4-cü maddəsinə əsasən məhkəmə analoji münasibəti tənzimləyən hüquq norması kimi MPM-in 363-cü maddəsini tətbiq edərək qiyabi qətnamənin ləğvi haqqında ərizənin onu vermiş cavabdehə qaytarılması haqqında qərardad çıxarmalıdır. Fikrimizcə, bu zaman qiyabi qətnamənin ləğvi haqqında ərizənin qaytarılmasına dair məsələnin həlli üçün MPM-in 363-cü maddəsi analogiya qaydasında tətbiq olunarkən qiyabi icraatın prosessual qanunvericiliklə müəyyən edilmiş spesifik xüsusiyyətləri nəzərə alınmalıdır. Belə ki, qiyabi qətnamənin ləğvi haqqında ərizənin verilməsi dövlət rüsumundan azad olduğu üçün həmin ərizə MPM-in 363.1.2-ci maddəsində göstərilmiş əsasla geri qaytarıla bilməz.

MPM-in 13.4-cü maddəsinə əsasən analoji münasibəti tənzimləyən prosessual hüquq norması kimi mülki prosessual qanunvericiliyin 363-cü maddəsi tətbiq olunaraq qiyabi qətnamənin ləğvi haqqında ərizənin onu vermiş cavabdehə qaytarılması barədə qərardadın çıxarılması cavabdehi və işdə iştirak edən digər şəxsləri qiyabi qətnamədən ümumi qaydada apellyasiya şikayəti vermək hüququndan məhrum etməməklə (MPM-in 253.3-cü maddəsi) işin sonrakı hərəkətinə, yəni mülki işə apellyasiya şikayətinə əsasən apellyasiya qaydasında baxılmasına mane olmur. Qanunun analogiyası qaydasında tətbiq olunan MPM-in 363.3-cü maddəsində həmin qərardaddan şikayətin verilməsi birbaşa nəzərdə tutulduğu üçün cavabdeh qiyabi qətnamənin ləğvi haqqında ərizənin qaytarılması barədə qərardaddan MPM-in 267-ci və 268-ci maddələri ilə müəyyən edilmiş qaydada və müddətdə şikayət verə bilər (MPM-in 363.3-cü və 395.1.1-ci maddələri).

Hakim qiyabi qətnamənin ləğvi haqqında ərizəyə baxaraq ərizənin təmin olunmaması haqqında, yaxud qiyabi qətnamənin ləğv edilməsi və işin təzələnərək mahiyyəti üzrə baxılması barədə qərardad çıxarır.

Qiyabi qətnamə ləğv olunduqdan və işin mahiyyəti üzrə baxılması təzələndikdən sonra həmin işin məhkəmə icraatı MPM-də nəzərdə tutulmuş prosessual qaydalara riayət edilməklə aparılır. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdeh məhkəmə iclasına gəlmədikdə işə mahiyyəti üzrə yenidən baxılmasının yekun aktı kimi qəbul edilmiş məhkəmə qətnaməsi cavabdehin iştirakı olmadan çıxarılmasına baxmayaraq, qiyabi qətnamə hesab olunmur. Bu da onu göstərir ki, eyni mülki işə yalnız bir dəfə qiyabi icraat qaydasında baxıla bilər. Cavabdeh və işdə iştirak edən digər şəxslər həmin qətnamədən yalnız apellyasiya qaydasında şikayət verə bilərlər.

Əgər qiyabi qətnamədən apellyasiya şikayəti verilməmişdirsə, o, apellyasiya şikayətinin verilməsi üçün qanunla müəyyən edilmiş prosessual müddət keçdikdən sonra qanuni qüvvəyə minir. Qiyabi qətnamədən apellyasiya şikayəti yalnız onun ləğvi haqqında ərizənin verilməsi və həmin ərizəyə baxılması müddətləri (müvafiq olaraq qiyabi qətnamənin surətinin cavabdehə rəsmi qaydada verilməsindən sonra 10 gün və qiyabi qətnamənin ləğvi haqqında ərizənin məhkəməyə daxil olduğu vaxtdan 10 gün) keçdikdən sonra verilə bildiyi üçün barəsində apellyasiya şikayəti verilməmiş qiyabi qətnamənin qanuni qüvvəyə minməsinə MPM-in 233.1-ci maddəsində nəzərdə tutulmuş qətnamənin qəbul edildiyi gündən hesablanan 1 aylıq müddət tətbiq oluna bilməz. Çünki qiyabi qətnamədən apellyasiya şikayətinin verilməsi müddəti onun qəbul edildiyi gündən ən azı 1 ay 20 gün sonra keçir (10 gün + 10 gün + 1 ay). Buna görə də barəsində apellyasiya şikayəti verilməmiş qiyabi qətnamə onun qəbul edildiyi gündən 1 ay keçdikdən sonra yox, məhz apellyasiya şikayətinin verilməsi müddəti keçdikdən sonra qanuni qüvvəyə minir.

MPM-in 253.1-ci maddəsinə görə qiyabi məhkəmə qətnaməsi ziyanına ləğv olunmuş tərəf, yəni iddiaçı bu qərardaddan şikayət verə bilməz. Qiyabi qətnamənin ləğv olunması və işə mahiyyəti üzrə baxılmasının təzələnməsi haqqında qərardaddan şikayətin verilməsinin yalnız qiyabi qətnamə ziyanına ləğv olunmuş tərəfə - iddiaçıya qadağan edilməsi heç də işdə iştirak edən digər şəxslərin həmin qərardaddan şikayət vermək hüququnun olması nəticəsinə gəlməyə əsas vermir. Belə qərardaddan şikayət verilməsinin mümkünlüyü MPM-də nəzərdə tutulmadığı və həmçinin bu qərardad işin sonrakı hərəkətinə mane olmadığı, əksinə, işin mahiyyəti üzrə baxılmasını təzələdiyi

üçün yalnız iddiaçı deyil, ümumiyyətlə, işdə iştirak edən şəxslər həmin qərardaddan şikayət verə bilməzlər (MPM-in 395-ci maddəsi).

Birinci instansiya məhkəməsinin qərardadlarından verilmiş şikayət yalnız onu qəbul etmiş birinci instansiya məhkəməsində baxılaraq təmin edilmədikdə baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilə bilər. Bu qayda növündən asılı olmayaraq birinci instansiya məhkəməsinin ayrıca akt formasında qəbul edilmiş bütün qərardadları üçün ümumi məcburi hüquqi qüvvəyə malik olduğu halda, AR MPM-in 253.2.2-ci maddəsində qiyabi məhkəmə qətnaməsinin ləğvindən imtina edilməsi barədə qərardaddan birbaşa apellyasiya qaydasında şikayət vermək hüququ nəzərdə tutulmuşdur ki, bu da MPM-in 267.3-cü, 269.3-cü, 396.1-ci və 397.1-ci maddələrinin tələblərinə ziddir. Ona görə də həmin qərardaddan şikayətin verilməsi və şikayətə baxılması MPM-in 267-269-cu maddələrində və 395-401-ci maddələrində müəyyən edilmiş qaydada həyata keçirilməsi məqsədəmüvafiq olar.

Qiyabi qətnamənin ləğvi haqqında ərizənin təmin edilməməsi barədə qərardaddan verilmiş şikayətə baxan apellyasiya instansiyası məhkəməsi həmin qərardadı qanunsuz hesab etdikdə, MPM-in 398.0.2-ci maddəsinə uyğun olaraq yalnız qərardadı ləğv edib ərizəyə yenidən baxılması üçün işi birinci instansiya məhkəməsinə göndərməlidir. Apellyasiya instansiyası məhkəməsi həmin qərardada münasibətdə MPM-in 398.0.3-cü maddəsində nəzərdə tutulmuş səlahiyyətini (qərardadı tam və ya qismən ləğv edib, qərardadla həll edilməli olan məsələni həll etmək) həyata keçirə bilməz. Əks təqdirdə MPM-in 244-cü, 248-ci və 249-cu maddələrinin tələbləri pozulmuş olar. Apellyasiya instansiya məhkəməsi qiyabi qətnaməni yalnız ondan verilmiş apellyasiya şikayəti əsasında ləğv edə bilər. Qiyabi qətnamənin onun ləğvi haqqında cavabdeh tərəfindən verilmiş ərizə əsasında ləğv edilməsi səlahiyyəti isə yalnız birinci instansiya məhkəməsinə məxsusdur.

Beləliklə, çəkişmə, tərəflərin hüquq bərabərliyi və işə faktlar əsasında baxılması məhkəmədə baxılan iş üzrə tərəflər üçün dispozitiv əhəmiyyətə malikdir. Belə ki, tərəflər mövqelərini öz mülahizələrinə əsasən ifadə edirlər və onlardan hər hansı birinin passivliyi (sübut təqdim etməməsi, sübutların tədqiqində iştirak etməməsi, məhkəmə iclasına gəlməməsi və s.) məhkəmə baxışının həyata keçirilməsini istisna etmir. Çünki MPM-in 238-253-cü maddələrinin tələblərinə riayət etməklə keçirilən qiyabi icraat ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi prinsipinin pozulması hesab edilə bilməz. Nəticədə cavabdehin məhkəmə iclasına gəlməməsi iddiaçının məhkəmə müdafiəsi hüququ üzrə tələbinə baxılmasını istisna edə bilməz.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı, Qanun, 2013.

2. **Manafov F. Hüseynov Ə. Kərimli B.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin Kommentariyası. II bölmə. Birinci instansiya məhkəməsində icraat. I yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2012.



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

## 2013-cü ilin may-oktyabr aylarında keçirilən tədbirlərin xülasəsi

Ölkəmizdə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə aparılan islahatlar çərçivəsində vakant hakim vəzifələrinə seçim prosesi davam etməkdədir. Seçim zamanı 400-dən çox hakimliyə namizəddən 76 nəfəri test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan müvəffəqiyyətlə keçmiş və bir illik tədris kursunu, həmçinin məhkəmələrdə yarım illik stajkeçməni başa vurmuşdur.

May ayının 3-də namizədlərin peşə hazırlığının yoxlanılması məqsədilə tədrisin nəticələri üzrə onlarla yazılı imtahan keçirilmişdir. Namizədlər verilmiş hüquqi kazusları həll etməklə, müvafiq məhkəmə qərarlarını tərtib etmək bacarıqlarını nümayiş etdirmişlər.

İmtahanın şəffaf prosedurlarla keçirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından səmərəli istifadə olunması, o cümlədən prosesin internet vasitəsilə “on-line” rejimində birbaşa yayımlanması müşahidəçilər tərəfindən yüksək dəyərləndirilmişdir.

Qeyd edək ki, namizədlərdən 4 nəfər Naxçıvan Muxtar Respublikasının müxtəlif dövlət orqanlarında çalışan şəxslərdir.

İmtahanın keçirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi, Hakimlərin Seçki Komitəsinin üzvü Əli Allahverdiyev iştirak etmişdir.

≈≈≈

May ayının 22-dən iyun ayının 8-dək 76 nəfər hakimliyə namizədin peşə hazırlığının yoxlanılması məqsədilə şifahi imtahan keçirilmişdir.

Beynəlxalq və yerli təşkilatlardan olan 20-dək müşahidəçinin iştirakı ilə keçirilən imtahanın nəticələri üzrə 73 nəfər hakimliyə namizədin biliyi məqbul sayılaraq onlar yekun müsahibəyə buraxılmışlar ki, onlardan da 4 nəfər namizəd Naxçıvan Muxtar Respublikasının müxtəlif dövlət qurumlarında, o cümlədən məhkəmə orqanlarında işləyən şəxslərdir.

İyun ayında yazılı və şifahi imtahanlardan müvəffəqiyyətlə keçmiş 73 nəfər hakimliyə namizədin hakim olmaq üçün zəruri keyfiyyətlərə yiyələnməsini müəyyən etmək məqsədilə Hakimlərin Seçki Komitəsi tərəfindən yekun müsahibələrə başlanılmışdır.

Keçirilən müsahibələrdə beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarından olan çoxsaylı müşahidəçilər iştirak etmişlər. Müsahibənin nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilmiş və bütün hakimliyə namizədlər hakim vəzifəsinə təyin olunmağa layiq bilinmişlər.

≈≈≈

İyul ayının 26-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin muxtar respublika məhkəmələrinin 2013-cü ilin birinci yarısındakı fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilmişdir.

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar 2013-cü ilin muxtar respublikamızda "Heydər Əliyev ili" elan olunduğunu bildirərək bunun məhkəmə orqanları üçün də əlamətdar hadisə olduğunu qeyd etmiş, sonra muxtar respublika məhkəmələrinin 2013-cü ilin birinci yarısındakı fəaliyyətinin yekunları ilə bağlı məruzə edərək məhkəmələr tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin cari ilin birinci yarısında gördükləri işlərə dair məlumatları dinlənilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış etmişdir.

≈≈≈

Məhkəmə-Hüquq Şurası tərəfindən çoxmərhələli imtahanlar əsasında seçilmiş və 1 illik tədris kursunu, o cümlədən məhkəmələrdə stajkeçməni uğurla başa vurmuş 73 nəfər hakimliyə namizədlər arasında sentyabr ayının 16-dan başlayaraq ixtisaslaşma aparılması üçün hakimlərin seçilməsi Qaydalarına uyğun olaraq Məhkəmə-Hüquq Şurası tərəfindən həmin namizədlərlə söhbət mərhələsinə başlanılmışdır.

Məhkəmə-Hüquq Şurası tərəfindən İxtisaslaşma aparıldıqdan sonra onların hakim vəzifəsinə təyin olunmaları üçün dövlət başçısına təkliflər verilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, məhkəmə-Hüquq Şurasının üzvü Ramiz Süleymanov Məhkəmə-Hüquq Şurasının iclasında iştirak etmək üçün 24-26 sentyabr tarixlərində Bakı şəhərində olmuşdur.

≈≈≈

Ölkəmizdə məhkəmə sisteminin müasirləşdirilməsi, peşəkar hakim korpusunun formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində vakant hakim vəzifələrinə seçilmək üçün çoxmərhələli imtahanlardan şəffaf prosedurlar əsasında uğurla keçmiş namizədlərin müvafiq hakim vəzifələrinə təyin olunması üçün Azərbaycan Respublikası Prezidenti "Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında" 4 oktyabr 2013-cü il tarixli Sərəncam imzalamışdır.

Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası üzrə Hüseynov Səxavət Səməd oğlu Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsinin, Məmmədov Mehrab Fərmayıl oğlu Culfa Rayon Məhkəməsinin, Salmanov Elşən Fizuli oğlu Ordubad Rayon Məhkəməsinin, Aslanov Emin Dilavər oğlu isə Şərur Rayon Məhkəməsinin hakimləri təyin edilmişlər.

≈≈≈

24-26 oktyabr tarixlərində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov Məhkəmə-Hüquq Şurasının növbəti iclasında iştirak etmək üçün Bakı şəhərində olmuşdur.

İclasda çıxış edən Şuranın sədri, Ədliyyə Naziri Fikrət Məmmədov ölkəmizdə yüksək demokratik standartlar səviyyəsində, mütəşəkkil keçirilmiş prezident seçkiləri zamanı xalqımızın dahi Heydər Əliyev ideyalarına sarsılmaz inam nümayiş etdirdiyini vurğulamış, cənab İlham Əliyevi yenidən ölkə Prezidenti seçməklə Azərbaycanın öz şərəfli tarixində növbəti uğura imza atdığını, davamlı və dinamik inkişafa etibarlı təminat əldə etdiyini bildirmişdir.

Şurada son illər həyata keçirilən mütərəqqi məhkəmə islahatının ədalət mühakiməsinin səmərəliliyinə əsaslı təsir göstərməsi, bir çox nöqsan və neqativ halların qarşısının qətiyyətlə alınması bildirilmiş, hakimlərin fəaliyyəti prinsipial qiymətləndirilməklə, kobud qanun pozuntularına, habelə korrupsiyaya şərait yaradan hallara, hakim etikasının pozulmasına görə təkcə son üç ildə 30 hakimin məhkəmə sistemindən kənarlaşdırılması vurğulanmışdır.

Eyni zamanda dövlət başçısının andiçmə mərasimində proqram xarakterli çıxışı zamanı ölkəmizin gələcək inkişafı naminə qarşıda qoyduğu mühüm məsələlər və bu sahədə Məhkəmə-Hüquq Şurasının vəzifələri müzakirə edilmiş, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsi, hakimlər tərəfindən Etik Davranış Kodeksinin tələblərinə dönmədən əməl edilməsi, vətəndaşlara daim qayğılı

münasibət göstərilməsi və onların haqlı narazılığına səbəb olan halların aradan qaldırılması üzrə əlavə tədbirlər müəyyən olunmuşdur.

≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈
≈

## Naxçıvan Muxtar Respublikasının hakimləri üçün "Azərbaycan inzibati və mülki prosesinin aktual problemləri" mövzusunda seminar keçirilmiş, beynəlxalq təşkilatlar muxtar respublikada ədalət mühakiməsinin səviyyəsini yüksək qiymətləndirmişlər



23-24 aprel 2013-cü il tarixdə Naxçıvan şəhərində Azərbaycan Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin hakimləri üçün "Azərbaycan inzibati və mülki prosesinin aktual problemləri" mövzusunda iki günlük seminar keçirilmişdir.

Seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov açaraq insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində ölkəmizdə həyata keçirilən hüquq islahatlarından söhbət açmış və qeyd etmişdir ki, "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanından sonra ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında muxtar respublikada hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, eləcə də onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Daha sonra çıxış edən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) Azərbaycan üzrə layihə rəhbəri Tomas Melser seminarın son dərəcə aktual bir mövzuya həsr olunduğunu qeyd etmişdir.

Seminarda Almaniyanın təqaüddə olan hakimi Peter Yakobun, layihə rəhbəri Tomas Melserin Azərbaycan inzibati və mülki prosesinin aktual problemləri: alman baxışı mövzularında, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri İlqar Dadaşov və Əsəd Mirzəliyevin Azərbaycanda İnzibati və Mülki Prosessual Məcəllənin tətbiqi ilə bağlı aşağı məhkəmələrin praktikasındakı problemlər, habelə Naxçıvan Muxtar Respublikası Ali Məhkəmə-

sinin hakimi Əli Allahverdiyevin, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin sədri Hicran Muradovun Naxçıvan Muxtar Respublikasının məhkəmələri tərəfindən İnzibati və Mülki Prosessual Məcəllənin tətbiqi ilə bağlı aktual məsələlərin icmalı mövzularında çıxışları dinlənilmişdir.

Seminara Ali Məhkəmənin sədri Ramiz Süleymanov yekun vurmuşdur.

Qeyd edək ki, keçirilmiş iki günlük seminar həm muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən milli qanunvericiliyin tətbiqi təcrübəsinin daha dərindən öyrənilməsi, həm də mövzu ilə bağlı qarşılıqlı təcrübə mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Seminarın təşkili və muxtar respublikamızda ədalət mühakiməsinin inkişafı Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, tədbirdən qısa müddət sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə ünvanlanmış təşəkkür məktubunda sözü gedən tədbirin təşkil olunması üçün muxtar respublikada yaradılmış şəraitə və göstərilmiş köməyə görə dərin təşəkkürünü bildirən təşkilatın layihə rəhbəri Tomas Melser seminarın peşəkarlıq baxımından yüksək səviyyədə keçirildiyini qeyd etmişdir.



Məktubda muxtar respublikada ədalət mühakiməsinin daha da inkişaf etməsinə və vətəndaşların həyat səviyyəsinin artırılmasına daima diqqət göstərilməsi faktı xüsusi olaraq vurğulanmışdır.

Naxçıvan Muxtar Respublikası məhkəmə orqanlarının fəaliyyətinə uğurlar arzulayan Tomas Melser yüksək tələblərə cavab verən bu cür əməkdaşlıqların gələcəkdə də davam etmək niyyətində olduqlarını bildirmişdir.

≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈
≈

## Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatlarına həsr olunmuş iki günlük beynəlxalq semianar keçirilmişdir



28-29 oktyabr tarixlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dəstəyi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Azərbaycan Hüquqşünasları Konfederasiyası, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və Almaniya Federal Ədliyyə Nazirliyinin Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun təşkilatçılığı ilə Naxçıvan şəhərində "Naxçıvan Muxtar Respublikasında aparılan məhkəmə-hüquq islahatları. Hakimlər üçün Avropa İnsan Hüquqları Konvensiyası" mövzusunda Beynəlxalq seminar keçirilmişdir.

Beynəlxalq seminar başlanmazdan öncə qonaqlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Əcəmi seyrəngahındakı büstü önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad etmişlər.

Seminarı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov ölkəmizdə və muxtar respublikada həyata keçirilən məhkəmə-hüquq islahatları barədə məlumat verərək bildirmişdir ki, Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə ölkəmizdə məhkəmə-hüquq sistemində ardıcıl olaraq aparılan islahatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkənin məhkəmə orqanları sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində böyük nailiyyətlər əldə olunur.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında da məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanının böyük rolu olmuşdur. Fərmanın qəbul edilməsindən ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqları sayəsində muxtar respublikada hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində

mühüm addımlar atılmış, məhkəmə orqanlarının müasir texniki avadanlıqlarla təchiz edilməsi ilə bağlı bir sıra işlər həyata keçirilmişdir.




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ***"Hüquqi cəhətdən maariflənmiş cəmiyyətdə yaşamaq da, işləmək də asan olar"*** fikrini xatırladaraq muxtar respublikada insan hüquqları sahəsində görülən işlər və əldə olunan nailiyyətlər, yaradılmış yeni hüquq institutları və onların fəaliyyəti barədə məlumat vermiş, seminarın işinə uğurlar arzulamışdır.

Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin sədri, Azərbaycan Hüquqşünasları Konfederasiyasının İdarə Heyətinin sədri Əli Hüseynli muxtar respublikada aparılan işlərə və eyni zamanda qeyd olunan tədbirin yüksək səviyyədə təşkil olunmasında verdiyi dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova bütün təşkilatçılar adından minnətdarlığını bildirmişdir. Azərbaycan Hüquqşünasları Konfederasiyasının İdarə Heyətinin sədri Əli Hüseynli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məhkəmə hüquq islahatlarına görə Azərbaycan Hüquqşünasları Konfederasiyasının diplomu ilə təltif etmişdir.

Almaniya Federal Ədliyyə Nazirliyinin Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun Cənubi Qafqaz üzrə layihə rəhbəri Tereza Talhammer çıxış edərək belə bir mötəbər beynəlxalq tədbirin Naxçıvanda keçilməsindən və özünün ilk dəfə Naxçıvanda olmasından məmnun qaldığını qeyd etmiş, göstərilən qonaqpərvərliyə və seminarın yüksək səviyyədə təşkilinə görə minnətdarlıq etmişdir.

Sonra "Konvensiyanın yaranma tarixi, məzmunu və beynəlxalq-hüquqi əhəmiyyəti", "Fərdi şikayətlər və bu şikayətlər üzrə icraat", "Konvensiyada nəzərdə tutulmuş konkret təminatlar", "Konvensiya pozuntusunun yoxlanılması qaydası", "Konvensiyanın dövlətdaxili hüquq sistemi üçün əhəmiyyəti və qanunvericilik sistemində iyerarxiya baxımından tutduğu yer", "Avropa İnsan Hüquqları Məhkəməsi qərarlarının məcburiliyi və təsiri", "Konvensiyanın qo-

ruma sferası, oradakı normaların tətbiqindən istisna hallar", "Konvensiyanın praktiki əhəmiyyəti", "Konvensiyanın 5-ci maddəsi: Azadlıq və təhlükəsizlik hüququ" mövzuları ətrafında məruzələr dinlənilmişdir. Mövzu üzrə məruzələrlə Avropa Şurasının İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Komitəsinin sədri, Milli Məclisin Dövlət Quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri, AHK İdarə Heyətinin üzvü hüquq elmləri doktoru, professor Lətif Hüseynov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri, AHK İdarə Heyətinin üzvü Çingiz Əsgərov, Federal Publik İdarəçilik İnstitutunun publik hüquq üzrə prof. Dr. Mixaela Vittinqer, Almaniya Federal İnzibati Məhkəməsinin sabiq hakimi, tərkib sədri Dr. Otto Mallmann, Azərbaycan Respublikası Milli Məclisinin deputatları Qüdrət Həsənquliyev və Fazil Mustafa çıxış etmişlər.



Seminarın oktyabrın 29-da davam edən ikinci günündə "Konvensiyanın 3-cü maddəsi: İşgəncənin qadağan edilməsi", "Konvensiyanın 6-cı maddəsi: Ədalətli məhkəmə araşdırılması hüququ", "Konvensiyanın 8-ci maddəsi: şəxsi və ailə həyatının qorunması hüququ", "Konvensiyanın 9-cu maddəsi: Vicdan və din azadlığı", Konvensiyanın 10-cu maddəsi: Fikir ifadə etmək azadlığı" "Konvensiyanın 11-ci maddəsi: Birləşmək və toplaşmaq azadlığı" mövzularında məruzəçi qismində İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri Çingiz Əsgərov, prof. Dr. Mixaela Vittinqer və Dr. Otto Mallmann çıxış etmişlər.

Seminara Ali Məhkəmənin sədri Ramiz Süleymanov yekun vurmuşdur.

Qeyd edək ki, seminarda Naxçvan Muxtar Respublikası Ali Məhkəməsinin, birinci instansiya məhkəmələrinin sədr və hakimləri, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Daxili İşlər və Ədliyyə nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının əməkdaşları iştirak etmişlər.

≈≈≈≈≈